

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

28 iyul 2026-cı il, çərşənbə axşamı

№ 131 (7198)

Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Sülhə mane olmaq cəhdi...

## Ermənipərəst konqresmenlər yenidən öz ampluasında




Bax səh. 2

## Prezident İlham Əliyev Azərbaycanda keçiriləcək U-15 dünya çempionatı və festivalı ilə bağlı Sərəncam imzalayıb

Bax səh. 2

## Ölkəmiz beynəlxalq iqlim diplomatiyasına böyük töhfələr verir

Bax səh. 4

## Azərbaycanın özəl neft-qaz sektoru üçün tarixi mərhələ

Bakı dünyada “Neft akademiyası” kimi tanınır ki, bu da təsadüfi deyil. Tarixən Azərbaycanda neft hasilatı və emalı sahələrində dünya üzrə bir sıra ilklərə imza atılıb. O cümlədən dənizdə neftçıxarmanın əsası da məhz Bakıda qoyulub.

Ənənələr unudulmur. Müstəqillik dövründə Azərbaycanın dövlət neft şirkəti olan SOCAR, eləcə də neft-qaz sahəsində ixtisaslaşmış bir sıra özəl şirkətləri öz fəaliyyətlərini artıq beynəlxalq səviyyəyə yüksəltməyə nail olublar. Respublikamızın ilk özəl neft-qaz şirkətləri qrupu olan GL Groupun bu günlərdə  ABŞ-ın Texas ştatının Hyuston şəhərində Midland yaxınlığında yerləşən, hazırda istismar edilən dörd neft-qaz yatağında hasilat aktivlərinin satın alınmasını tamamladığını elan etməsi bunun daha bir təsdiqidir. Satın alınmış aktivlərin tərkibinə 200-dən çox aktiv neft hasilatı quyusu daxildir. GL Group həmçinin həmin aktivlərin tam operatorluğunu rəsmi olaraq öz üzərinə götürüb.

2019-cu il 15 aprel tarixində təsis edilən GL şirkəti Azərbaycanın ilk özəl enerji şirkəti kimi fəaliyyətə başlayıb. GL şirkəti daha sonra əhəmiyyətli dərəcədə böyüyərək, 1 may 2024-cü ildə respublikamızın ilk özəl enerji şirkətləri qrupu olaraq GL Group-a çevrilib.

GL Group-un rəhbərlik komandası neft-qaz sahəsində geniş beynəlxalq təcrübəyə malik olan mütəxəssislərdən ibarətdir. Qurum strateji aktivlərin əldə edilməsi, həmçinin...

Bax səh. 4




Bax səh. 3

## Orta Dəhlizin rəqəmsallaşdırılması

## Nəsillərin yaddaşında yaşayan insan

Bax səh. 5

## BMT TŞ qərarlarını effektli icra etməlidir

Bax səh. 5

## Xəyanət üçün fürsət axtaranlar...

Bax səh. 6

## Medianın İnkişafı Agentliyi Bəyanat yayıb

Medianın İnkişafı Agentliyi İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektlərinin, o cümlədən AzTV-nin “düşmən media qurumları” siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi ilə bağlı Bəyanat yayıb.

AZƏRTAC Bəyanatı təqdim edir.

“İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektləri, o cümlədən Azərbaycan Respublikasının dövlət televiziya kanalı olan AzTV-nin “düşmən media qurumları” siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi təəccüb doğurur.

Heç şübhəsiz ki, Azərbaycan Respublikası jurnalistlərin peşə fəaliyyətinin müdafiəsinə sadiq olmaqla yanaşı, qarşılıqlılıq prinsipinin tətbiqini də təmin edir. Belə ki, “Media haqqında” Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətləri tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər.

Müvafiq maddənin tələbləri və qarşılıqlılıq prinsipi nəzərə alınaraq, Azərbaycan Respublikasının milli maraqlarına zidd fəaliyyət...

Bax səh. 5

## NATO-nun yeni güc mərkəzi formalaşır...




Bax səh. 6

## Vaşinqtonun yeni Yaxın Şərq strategiyası




Bax səh. 7



Prezident İlham Əliyev 15 yaşadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının 2026-cı ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev Azərbaycanda keçiriləcək U-15 dünya çempionatı və festivalı ilə bağlı Sərəncam imzalayıb

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, U-15 dünya çempionatı və festivalının Azərbaycanda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq tədbirlərin əlaqələndirilməsi və zəruri məsələlərin həlli 20 yaşadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 dekabr tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinə həvalə edilib.

Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurası Bürosu 2026-cı il iyunun 25-də 15 yaşadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının (FIFA U-15 World Cup and Festival) bu il oktyabrın 22-31-də Azərbaycanda keçirilməsi barədə qərar qəbul edib.

İdman tarixində ilk dəfə keçiriləcək U-15 dünya çempionatı və festivalına Azərbaycanın ev sahibliyi etməsi ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzunun daha da möhkəmlənməsinə, futbolun inkişafına və Azərbaycanın mötəbər yarışların təşkili sahəsində qazandığı təcrübənin zənginləşməsinə xidmət edəcək.

# Sülhə mane olmaq cəhdi...

## Erməniпərəst konqresmenlər yenidən öz ampluasında

Ötən ilin avqustunda Vaşinqtonda keçirilən ABŞ-Azərbaycan-Ermənistan üçtərəfli görüşü Cənubi Qafqazda sülhün təminatı, yeni təhlükəsizlik arxitekturasının yaradılması baxımından mühüm bir tarixi hadisə kimi yadda qaldı. Məhz bu üçtərəfli görüşdə əldə olunan razılaşmalar, sülh sazişi layihəsinin paraflanması, imzalanan Birgə Bəyannamə Ermənistan ilə Azərbaycan arasında sülhün daha da yaxınlaşmasına rəvac verib. Məhz Vaşinqtonda nümayiş olunan iradə sülh sənədinin imzalanmasının yaxın olduğuna da böyük inam yaradır. Paralel olaraq regionda digər sülhyaradıcı amillərin - Zəngəzur dəhlizinin (TRİPP) açılması perspektivinin formalaşmasının, Türkiyə - Ermənistan sərhəddinin açılmasının da mühüm bir coğrafiyada yeni münasibətlər sisteminin bərqərar olmasına təkan verə biləcəyi düşünülür. Bu isə özlüyündə həm də prosesə beynəlxalq diqqəti cəlb edir. Vaşinqtonun yaxından iştirakı, ev sahibliyi ilə sülh prosesinə verilən dəstək vacib amil kimi ön plana çıxıb - bu, Azərbaycanın sülh təşəbbüslərinin dəstəklənməsi, regionun yeni gələcək mərhələyə qədəm qoyması üçün bütün imkanların səfərbər olunması deməkdir.

Tramp administrasiyasının sülh məsələsindəki aktiv iştirakı, tərəflər arasında razılaşmaların əldə olunması istiqamətində səyləri isə bölgədə yeni reallıqların yaranmasına yol açır. Bu isə özlüyündə erməni lobbisinin maraqlarına cavab vermir - yaranan situasiya xüsusilə ABŞ-da yaşayan erməni lobbisini narahat edir. Bunun nəticəsidir ki, onlar Azərbaycana qarşı ənənəvi şər-böhtan və qarayaxma kampaniyasından əl çəkmək, ölkəmizə qarşı qərəzli mövqedən uzaqlaşmaq istəmirlər.

Bəli, erməni lobbisi və onların "himayəsində" olan bəzi siyasətçilər təxminən otuz ili əhatə edən işğal dövründə, postmüharibə mərhələsində dəfələrlə Azərbaycana qarşı qərəzli kampaniyalar təşkil ediblər, ayrı-ayrı Avropa və ABŞ təsisatlarında ölkəmiz əleyhinə həqiqətdən uzaq qətnamələr qəbul edilməsinə nail olublar. Bu dəfə yenə analoji mənzərənin şahidi oluruq - erməni lobbisinin anti-Azərbaycan kampaniyası səngimir. Ələbaxan konqresmenlər, pulla ələ alınırlar. Geniş imkanlara, maliyyə qaynaqlarına malik olan erməni lobbisi onlara qrantlar, bahalı hədiyyələr müqabilində sifarişlər verir və Azərbaycan əleyhinə fəaliyyətlərə sövq edir.

**Qərəzli, əsassız "düzəliş" cəhdi - Şerman və "komandası"nın canfəşanlığının pərdəarxası**

Qeyd edək ki, ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsində H.R. 9087 saylı qanun layihəsinin müzakirəsi zamanı 2026-cı il iyulun 22-də ölkəmiz əleyhinə irəli sürülmüş düzəlişlər və əsassız ittihamlar da məhz bu qəbildəndir. Qeyd edək ki, sabiq konqresmen, açıq korrupsiya faktları ilə təqsirləndirilən Robert Menendesin siyasi xəttinin davamçısı konqresmen Bred Şermanın müəllifliyi ilə ortaya çıxan düzəlişlər erməni lobbisinin maraqlarının açıq ifadəsidir. Birləşmiş Ştatların son dövrlərdə Cənubi Qafqaza yönəlik siyasəti ilə zidd təsir bağışlayan bu düzəlişlərin mahiyyəti ortadadır - bunlar Şerman başda olmaqla bəzi konqresmenlərin aralıq seçkilərdə nüfuzlu lobbi dairələrinin siyasi və maliyyə dəstəyini qazanmaq məqsədi güdür.



Maraqlıdır ki, ölkəmizə qarşı olan erməniпərəst qrupların tezisləri dəyişmir - budəfəki düzəlişlərin xarakteri və məğzi də özündən əvvəlkilərdən fərqlənmir. 2023-cü il antiterror əməliyyatlarından sonra ölkəmizə qarşı başlanan təzyiq kampaniyalarının tezisləri əsasında "formalaşdırılan" bu düzəlişlərin altından da çirkin missiya daşıyıcısı Beynəlxalq Cinayət Məhkəməsinin sabiq prokuroru Luis Moreno Okamponun və onun kimilərinin "silueti" boylanır. Eyni siyasi xətt Avropa Şurası Parlament Assambleyasının ölkəmizə qarşı iddialarında da əks olunur. Qurumun ayrı-ayrı deputatları, xüsusən Frank Şvabe kimi şəxslər uzun müddətdən bəri Azərbaycan barəsində məhz bu düzəlişlərdə yer alan qeyri-obyektiv və qərəzli təşəbbüslərlə çıxış edirlər. Bu bir daha onu sübut edir ki, erməni lobbisi müxtəlif beynəlxalq platformalarda ölkəmizə qarşı sistemli şəkildə hücumlar tərtib edir, qərəzli və yalan kampaniyaları aparır. Diqqət yetirsək, bu dəfə də əsas "mövzu" ölkəmizə qarşı ağır cinayətlər törətmiş şəxslərlə bağlıdır. Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslər barəsində "hərbi əsirlər" və "siyasi məhbuslar" kimi terminlərin işlədilməsi, onların azadlığa çıxması üçün canfəşanlıq edilməsi hər şeyi açıq şəkildə ortaya qoyur. Birmənalı şəkildə bəllidir ki, bu şəxslər hərbi əsirlər və ya siyasi məhbuslar deyillər - onlar Azərbaycan qanunvericiliyi və beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan hərbi təcavüz, müharibə cinayətləri, zorakılıqla yoxa çıxarma, işgəncə vermə, terrorçuluq və digər cinayətlər törətdiklərinə görə cinayət məsuliyyətinə cəlb edilən cinayətkarlardırlar. Onların həbsini "siyasi motivlə" pərdələmək isə faktların bilərəkdən təhrif edilməsi, müstəqil dövlət tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsinə birbaşa müdaxilədir.



**Sabiq konqresmen, açıq korrupsiya faktları ilə təqsirləndirilən Robert Menendesin siyasi xəttinin davamçısı konqresmen Bred Şermanın müəllifliyi ilə ortaya çıxan düzəlişlər erməni lobbisinin maraqlarının açıq ifadəsidir. Birləşmiş Ştatların son dövrlərdə Cənubi Qafqaza yönəlik siyasəti ilə zidd təsir bağışlayan bu düzəlişlərin mahiyyəti ortadadır - bunlar Şerman başda olmaqla bəzi konqresmenlərin aralıq seçkilərdə nüfuzlu lobbi dairələrinin siyasi və maliyyə dəstəyini qazanmaq məqsədi güdür.**

**Tezis dəyişmir, müəllif dəyişmir, hədəf dəyişmir...**

Bu dəfəki "düzəlişlər" də müəllif Bred Şermanın bu formatda ilk cəhdi deyil. Ötən ilin avqustunda da ABŞ Nümayəndələr Palatasının Xarici İşlər Komitəsi Dövlət Departamentinin yenidən səlahiyyətləndirilməsi prosesi çərçivəsində nəzərdən keçirilən qanun layihələrinə iki düzəlişi rədd etmişdi - həmin düzəlişlərin də müəllifi məhz Şerman idi. Bu düzəlişlər də açıq şəkildə anti-Azərbaycan xarakterli idi. Bəs Şermanın erməni lobbisi ilə işbirliyinin altında nələr yatır? Qeyd edək ki, Kaliforniyadan olan demokrat konqresmen Şermanın kimliyi və mövqeyi haqda yeni nəsə deməyə ehtiyac yoxdur - Bred Şerman ABŞ Konqresinə Kaliforniya ştatında, Los Anceles şəhərindəki San Fernando dairəsindən (30-cu dairə) seçilib. O, Azərbaycan və Türkiyəyə qarşı qatı düşmən mövqeyi sərgiləyir. Şerman, həmçinin Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin və Konqresin Erməni Məsələləri üzrə Komissiyasının üzvüdür. Nəinki erməni dəstəkçisi, hətta ermənidən daha çox erməni kimi tanınır - 2023-cü il antiterror tədbirlərindən sonra Qarabağı könüllü tərk edən ermənilərin geri qayıtması üçün Donald Trampın administrasiyasına belə müraciət etmişdi. Bu şəxs erməni lobbisinin bütün anti-Azərbaycan təşəbbüs və təbliğat kampaniyalarında öndə gedib. Onlar Azərbaycan torpaqlarının işğal altında olduğu illərdə ikili standartlardan çıxış etməklə Ermənistana dəstək göstərib, ilhaqa, təcavüzə özünəsayaq haqq qazandırıb.

**Milli Məclis: Konqresmenləri mütəşəkkil erməni lobbi qruplarının təsiri altında qərarlar qəbul etmək praktikasından əl çəkməyə çağırırıq**

Qeyd edək ki, Azərbaycan Respublikasının Milli Məclisi ABŞ Konqresi Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin qəbul etdiyi qanun layihəsinə dair açıqlama yayıb. Açıqlamada baş verənlərin erməni lobbisinin təsiri altında həyata keçməsi qeyd olunur və bildirilir ki, bu cür addımların Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin ardıcıl surətdə irəli aparıldığı bir dövrdə baş verməsi narahatlıq doğurur: " Möhkəm və uzunmüddətli sülhün bərqərar edilməsinə yönələn beynəlxalq səylər, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçilik təşəbbüsü və birbaşa dəstəyi iki dövlət arasında münasibətlərin nizama salınması üçün real imkanlar açmışdır. Belə bir şəraitdə ayrı-ayrı konqresmenlərin siyasi motivli birtərəfli qərarları qəbul etdirmək cəhdləri nəinki etimad mühitini pozur, həm də sülh prosesinə əngəl törədir. Bu cür hərəkətlər yalnız erməni lobbisinin radikal şovinist dairələrinin maraqlarına xidmət edir. Onilliklər ərzində bu dairələr Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına mane olmuş və qarşıdurmanı qoruyub saxlamağa çalışmışlar, indi isə regional gərginlikdən öz siyasi və maliyyə hədəflərinə nail olmaq üçün istifadə edirlər".

Açıqlamada vurğulanır ki, Milli Məclis Amerika Birləşmiş Ştatlarının konqresmenlərini mütəşəkkil erməni lobbi qruplarının təsiri altında qərarlar qəbul etmək praktikasından əl çəkməyə, Azərbaycan Respublikasının suverenliyinə hörmət göstərməyə, eləcə də Cənubi Qafqazda sülh prosesinin pozulmasında və qarşıdurmanın qalmasında marağı olan qüvvələrin əlində alətə çevrilməməyə çağırır.

**TÜRKPA etiraz bəyanatı yaydı...**

Erməni lobbisinin təsiri altında sülh prosesinə qarşı addım kimi qiymətləndirilən bu düzəlişlər beynəlxalq aləmdə də etirazla qarşılanır. Məsələ ilə bağlı Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) ciddi narahatlığını ifadə edib. TÜRKPA-nın Baş katibi Ramil Həsən bununla bağlı bəyanat yayıb. Bəyanatda vurğulanır ki, bu təşəbbüsün Azərbaycan ilə Ermənistan arasında Cənubi Qafqazda münasibətlərin normallaşdırılması və sülh quruculuğu prosesinin fəal davam etdiyi bir dövrdə irəli sürülməsi təəssüf doğurur.

**Möhkəm və uzunmüddətli sülhün bərqərar edilməsinə yönələn beynəlxalq səylər, xüsusən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın vasitəçilik təşəbbüsü və birbaşa dəstəyi iki dövlət arasında münasibətlərin nizama salınması üçün real imkanlar açmışdır. Belə bir şəraitdə ayrı-ayrı konqresmenlərin siyasi motivli birtərəfli qərarları qəbul etdirmək cəhdləri nəinki etimad mühitini pozur, həm də sülh prosesinə əngəl törədir. Bu cür hərəkətlər yalnız erməni lobbisinin radikal şovinist dairələrinin maraqlarına xidmət edir**

Qanunvericilik qərarlarının ayrı-ayrı lobbi qruplarının maraqları ilə deyil, faktların obyektiv qiymətləndirilməsinə və beynəlxalq hüquq prinsiplərinə əsaslanmalı olduğu diqqətə çatdırılıb. TÜRKPA qanunverici orqanları iki ölkə arasında davam edən normallaşma prosesinə mənfi təsir göstərə biləcək addımlardan çəkinməyə çağırıb.

Assambleya bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, eləcə də mehriban qonşuluq prinsiplərinə sadiqliyini bir daha təsdiq edib.

**P.İSMAYILOV**

# Orta Dəhlizin rəqəmsallaşdırılması

Azərbaycanda nəqliyyat və logistika sahəsində həyata keçirilən rəqəmsal transformasiya tədbirləri ölkənin xidmətlər balansında nəqliyyat sektorunun rolunun daha da gücləndirilməsinə mühüm töhfə verə bilər

Son illərdə dünyanın ayrı-ayrı regionlarında geosiyasi və geoiqtisadi vəziyyətin gərginləşməsi fonunda təhlükəsiz nəqliyyat dəhlizlərinin önəmi heç vaxt olmadığı qədər artıb. Belə bir şəraitdə Avrasiyanın mühüm nəqliyyat bağlantısı olan Transxəzər marşrutunun (Orta Dəhliz) cəlbediciliyi artıb. Ayrı-ayrı ölkələr və şirkətlər yüklərinin məhz bu marşrut üzərindən daşınmasına üstünlük verirlər ki, bu da özünü yük həcmlərinin artmasında göstərir.

Qarşıdakı dönəmdə isə Orta Dəhlizi yeni perspektivlər gözləyir. Söhbət ilk növbədə müasir dövrün əsas çağırışlarından olan rəqəmsal həllərin Orta Dəhliz üzrə də tətbiqi dairəsinin genişləndirilməsindən gedir. Beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyəti təkcə müasir infrastruktur-la deyil, həm də rəqəmsal texnologiyaların tətbiqi ilə müəyyən edilir. Bu reallıq nəzərə alınmaqla Orta Dəhlizin rəqəmsallaşdırılması da iştirakçı dövlətlər tərəfindən prioritet hədəf kimi müəyyənləşdirilib və bu istiqamətdə respublikamızda real tədbirlərin həyata keçirilməsinə başlanıb.

## Orta Dəhlizin funksionallığının artmasında Azərbaycanın müstəsna rolu

Əlverişli coğrafi mövqeyə malik Azərbaycan Orta Dəhlizin təsisçi dövlətləri sırasında yer alır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur.

İndiyədək Azərbaycan Transxəzər marşrutunun funksionallığının artmasında müstəsna rol oynayıb. Bu, bir tərəfdən respublikamızın Avrasiyada son dərəcə əlverişli coğrafi mövqedə yerləşməsi, uzunmüddətli daxili sabitliyə malik olması, cəmiyyətdə tolerantlıq mühitinin hökm sürməsi, digər tərəfdən isə geniş nəqliyyat-logistika imkanları təqdim etməsi ilə bağlıdır. Prezident İlham Əliyev son 23 ildə ölkəmizin əlverişli coğrafi mövqeyini nəzərə almaqla strateji baxış nümayiş etdirərək qeyd olunan sahənin inkişafına həssas yanaşma sərgiləyib. Onun qətiyyətli siyasi iradəsi ilə ölkə boyunca böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı nəqliyyat-logistika layihələri uğurla icra olunub və respublika ərazisindən keçən bütün marşrutlar üzrə tranzit daşımalarının optimal vaxt rejimində səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılıb. Tam qətiyyətlə deyə bilərik ki, hazırda Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat-logistika mərkəzinə çevrilib ki, bu da respublikamızın regional və qlobal miqyasda önəmini artıran çox mühüm amillərdən biri qismində çıxış edir. Bu yaxınlarda Beynəlxalq Nəqliyyat Forumunun hesabatı təqdim olunub. Həmin hesabatda da Azərbaycanın ölkə ərazisində nəqliyyat-logistika infrastrukturuna böyük həcmlərdə investisiyalar yönəltməsinə xüsusi diqqət çəkilib. Bildirilib ki, 2022-2024-cü illər üzrə Azərbaycanın daxili nəqliyyat infrastrukturuna investisiyaları ÜDM-in orta hesabla 3,5 faizini təşkil edib.

Azərbaycanda Beynəlxalq Nəqliyyat Forumunun hesabatında da yüksək qiymətləndirilən müasir nəqliyyat-logistika infrastrukturu quruculuğundan bəhs edərkən ölkəmizdə bu sahəyə kompleks yanaşma sərgiləndiyinin önəminə xüsusi diqqət çəkilməlidir. Hesabatda 2024-cü ilədək olan dövrün statistikasına istinad olunub. Respublikamızda 2004-cü ildən başlayaraq həmin tarixədək olan dövrdə nəqliyyat-logistika sahəsində reallaşdırılan layihələr müxtəlif istiqamətləri - avtomobil yollarını, dəmiryolunu, su və hava nəqliyyatını əhatə edib.

Azərbaycanın 2004-2024-cü illərdə məqsədyönlü şəkildə həyata keçirdiyi müasir nəqliyyat infrastrukturu quruculuğu siyasətinin konkret nəticələrini bütün ölkə boyunca avtomobil yollarının yenilənməsinin timsalında aydın şəkildə görmək mümkündür. Bütövlükdə, ölkəmizdə avtomobil yollarının yenidən qurulması ilə bağlı statistika kifayət qədər zəngindir. Belə ki, bəhs olunan dövrdə ölkə ərazisində təxminən 20 min kilometr uzunluğunda avtomobil yolları tikilib və yaxud əsaslı şəkildə yenidən qurulub.

Dəniz nəqliyyatı Orta Dəhlizin mühüm seqmentini təşkil edir. Ötən dövrdə respublikamızda dəniz nəqliyyatının inkişafı xüsusi diqqət mərkəzində saxlanılıb. Bu gün Azərbaycan Xəzərdə ən böyük daşıma donanmasına malikdir. Burada əlamətdar məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan nəqliyyat imkanlarını ölkə hüdudlarından kənara çıxarmağı bacarıb. Qara dənizdə daşımalar həyata keçirmək üçün üç böyük tanker alınıb. Onların hər biri 115 min ton yükgötürmə qabiliyyətinə malikdir. Xarici sularda Azərbaycan bayrağı altında üzən gəmilər "Aframax" tipli tankerlərdir.

Reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamızda dəmir yolu şəbəkəsinin texniki imkanları və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, texnika parkı modernləşib. Müvafiq Dövlət Proqramının icrası çərçivəsində çoxsaylı layihələr reallaşdırılıb ki, bunun da sayəsində Orta Dəhlizin ötürücülük imkanları artıb.

Azərbaycanın nəqliyyat-logistika imkanlarını artıraraq Avrasiyanın mühüm nəqliyyat hablarından birinə çevrilməsindən bəhs edərkən ölkəmizin liderliyi ilə inşa olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının önəmini ayrıca qeyd edə bilərik. Şərq-Qərb marşrutunun və Orta Dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanın dəmir yolları şəbəkələrinin birləşdirilməsini təmin edib. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 17 milyon ton və daha çox yük daşınması nəzərdə tutulur. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi üzrə layihə də yekunlaşıb.

Beynəlxalq dəhlizlərin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal iş aparılır. Bakı Beynəlxalq Ticarət Limanının birinci fazasının illik yükdaşıma qabiliyyəti 15 milyon tondur. Genişləndirmə layihəsi çərçivəsində limanın avtomatlaşdırılması nəticəsində buradan keçən tranzit yüklərin daha sürətli ötürülməsinə imkan yaranacaq.




## Orta Dəhliz üzrə beynəlxalq daşımalarda elektron icazə sisteminə keçid

İdarəetmənin rəqəmsallaşdırılmasını ölkə gündəliyinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirən Azərbaycan həmçinin Orta Dəhlizin rəqəmsallaşdırılmasında da liderlik nümayiş etdirir. İndiyədək Azərbaycan dövlətinin güclü siyasi iradəsi sayəsində Türkiyə, Özbəkistan, Qırğızıstan və Qazaxıstanla Orta Dəhlizdə elektron icazə (E-Permit) sisteminin tətbiqi razılaşdırılıb. Artıq siyahıya beşinci dövlət - qonşu Gürcüstan da əlavə olunub. Bu günlərdə iki ölkə arasında avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarında elektron icazə (E-Permit) sisteminin tətbiqinə başlanılıb.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, bununla bağlı razılaq cari il aprelin 8-9-da Bakıda keçirilən Azərbaycan-Gürcüstan Beynəlxalq Avtomobil Əlaqələri üzrə Qarışıq Komissiyanın iclasında əldə olunub. Razılaşmaya əsasən, hər iki ölkənin aidiyyəti qurumlarının nümayəndələrindən ibarət işçi qrup mayın 1-dən etibarən sistemlərin inteqrasiyası istiqamətində texniki işlərə başlayıb. Aparılan işlər nəticəsində proses uğurla yekunlaşıb.

İnteqrasiya prosesinin tamamlanmasından sonra tərəflər arasında elektron icazə blanklarından istifadə edilməklə ilk pilot daşımalar həyata keçirilib. Pilot mərhələnin uğurlu nəticələrinə əsasən, sistemin aktiv tətbiqinə keçid məqsədilə ilkin olaraq tərəflər arasında 1000 ədəd ikitərəfli, 1000 ədəd tranzit və 1000 ədəd üçüncü ölkə elektron icazə blankı mübadilə edilib. Hazırda həmin elektron icazə blanklarının daşıyıcılara təqdim edilməsinə başlanılıb.

Beləliklə, Gürcüstan Azərbaycanın elektron icazə (E-Permit) sistemini tətbiq etdiyi beşinci ölkə olub. Daşıyıcılar AYNA-nın e-xidmət portalı vasitəsilə elektron icazə blanklarını olduqları yeri tərk etmədən, günün 24 saatı, həftənin 7 günü tam avtomatik rejimdə əldə edə bilərlər.

Yeni sistem daşıyıcılara icazə blanklarını məsafədən və operativ şəkildə əldə etmək imkanı yaratmaqla yanaşı, beynəlxalq yük daşımalarında inzibati prosedurların sadələşdirilməsinə, kağız sənəd dövriyyəsinin azaldılmasına və nəqliyyat sahəsində rəqəmsallaşmanın genişlənməsinə mühüm töhfə verəcək.

## "Bir Pəncərə" Rəqəmsal Logistika Platforması təqdim olunub

Bu günlərdə xarici ticarət əməliyyatları üzrə məlumatları, xidmətləri və prosesləri vahid rəqəmsal ekosistemdə birləşdirən "Bir Pəncərə" İnformasiya Sistemi (İS) - Rəqəmsal Logistika Platformasının rəsmən təqdim olunması ölkəmizin ərazisindən keçən beynəlxalq marşrutların, o cümlədən də Orta Dəhlizin rəqəmsallaşdırılması istiqamətində atılan çox mühüm addımdır. Təqdimat mərasimində bildirilib ki, platforma Azərbaycan Prezidentinin 15 dekabr 2025-ci il tarixli 547 nömrəli Fərmanına uyğun olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yaradılıb. Yeni sistem idxal, ixrac, tranzit və nəqliyyat əməliyyatları üzrə məlumatları, xidmətləri və sənəd dövriyyəsini vahid rəqəmsal mühitdə inteqrasiya etməklə xarici iqtisadi fəaliyyət iştirakçıları üçün daha sadə, şəffaf və izlənilə bilən xidmət imkanları yaradır.

"Bir Pəncərə" İnformasiya Sistemi sahibkarların inzibati yükünün azaldılmasına, dövlət xidmətlərinə çıxışın asanlaşdırılmasına və xarici ticarət proseslərinin daha səmərəli təşkilinə xidmət edir. Platformanın tətbiqi ilə logistika zəncirində operativliyin artırılması, məlumat mübadiləsinin sürətləndirilməsi və ticarət əməliyyatlarının optimallaşdırılması nəzərdə tutulur. Uzunmüddətli perspektivdə sistem Azərbaycanın daha çevik və dayanıqlı xarici ticarət ekosisteminin formalaşmasına, biznes mühitinin rəqabət qabiliyyətinin yüksəldilməsinə, ölkənin tranzit potensialının gücləndirilməsinə və təchizat zəncirlərinin daha səmərəli qurulmasına mühüm töhfə verəcək.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, "Bir Pəncərə" informasiya sistemi logistika ekosisteminin bütün iştirakçılarını vahid platformada birləşdirərək yükdaşımaların planlaşdırılması, icazələrin alınması, məlumat mübadiləsi və logistika xidmətlərinin daha operativ təşkilini təmin edəcək. Dünyada bu modelin tətbiq olunduğu ölkələrin sayı məhduddur. Azərbaycan dövlət-biznes əməkdaşlığı əsasında vahid rəqəmsal ekosistem formalaşdırmaqla beynəlxalq ticarətdə etibarlı və müasir logistika qovşağı kimi mövqeyini daha da möhkəmləndirir.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov qeyd edib ki, "Bir Pəncərə" platforması sahibkarlar üçün gömrük prosedurlarının sadələşdirilməsi və dövlət xidmətlərinin əlçatanlığının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, layihənin tam tətbiqindən sonra sahibkarların eyni məlumatı müxtəlif dövlət qurumlarına təkrar təqdim etməsinə ehtiyac qalmayacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı isə çıxışında bildirib ki, Azərbaycanda nəqliyyat və logistika sahəsində həyata keçirilən rəqəmsal transformasiya tədbirləri ölkənin xidmətlər balansında nəqliyyat sektorunun rolunun daha da gücləndirilməsinə mühüm töhfə verə bilər. Onun sözlərinə görə, bu ilin birinci rübündə Azərbaycanın tədiyyə balansında qarşılıqlı xidmətlər dövriyyəsinin 30 faizi nəqliyyat xidmətlərinin payına düşüb. Ümumi dəyəri 1,3 milyard dollar olan nəqliyyat xidmətlərinin 69 faizi qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat xidmətlərindən istifadəsi hesabına formalaşıb. "Hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə nəqliyyat xidmətlərinin ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,5 faiz artıb, idxalı isə 10,6 faiz azalıb. Nəticədə nəqliyyat xidmətləri üzrə profisit 54,4 faiz artaraq 500 milyon dollara çatıb. Bu göstəricilər nəqliyyat xidmətlərinin Azərbaycanın xidmətlər balansında dayanıqlı və artan əhəmiyyətə malik strateji istiqamətlərdən birinə çevrildiyini göstərir", - deyə qurum rəsmisi vurğulayıb.

Layihə rəhbəri Ehtiram Quliyev platformanın əsas funksionallıqları barədə məlumat verərkən bildirib ki, sistem dörd əsas alt sistemdən ibarətdir və idxalatçılar, ixracatçılar, daşıyıcılar, ekspeditorlar, logistika şirkətləri və digər maraqlı tərəflər üçün geniş imkanlar yaradır.

Qeyd edilib ki, "Bir Pəncərə" İnformasiya Sistemi uzunmüddətli inkişaf perspektivi üçün nəzərdə tutulmuş milli rəqəmsal platformadır. Növbəti mərhələlərdə sistemə yeni dövlət xidmətlərinin, əlavə inteqrasiyaların və beynəlxalq əməkdaşlıq imkanlarının daxil edilməsi planlaşdırılır.

## "Bir Pəncərə" İS-nin Orta Dəhliz üzrə tərəfdaş ölkələrin müvafiq sistemlərinə inteqrasiyası

Azərbaycanın nəqliyyat və logistika sektorunda rəqəmsal transformasiyanın dərinləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyur. İctimaiyyətə təqdim olunan "Bir Pəncərə" informasiya sistemi yalnız yeni elektron platforma deyil, dövlət idarəçiliyində çevikliyi, şəffaflığı və səmərəliliyi artıracaq müasir rəqəmsal idarəetmə modelidir.

Bu sözləri Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Nəqliyyat siyasəti şöbəsinin müdiri Fariz Əliyev KİV-ə açıqlamasında deyib.

Qurum rəsmisi bildirib ki, gələcək mərhələdə "Bir Pəncərə" informasiya sisteminin Orta Dəhliz və digər beynəlxalq nəqliyyat dəhlizləri üzrə tərəfdaş ölkələrin analoji informasiya sistemləri ilə inteqrasiyası nəzərdə tutulur. Bu inteqrasiya beynəlxalq daşımalarda elektron məlumat mübadiləsini genişləndirəcək, elektron nəqliyyat və ticarət sənədlərinin qarşılıqlı tanınmasını təmin edəcək, sərhədlərarası yükdaşımaların daha sürətli, təhlükəsiz və proqnozlaşdırılan şəkildə həyata keçirilməsinə şərait yaradacaq.

"Bir Pəncərə" informasiya sistemi Azərbaycanın tranzit potensialının daha da artırılmasına, xarici ticarətin inkişafına, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və ölkənin beynəlxalq nəqliyyat dəhlizlərində rəqabət qabiliyyətinin möhkəmləndirilməsinə mühüm töhfə verəcək. Bu layihə eyni zamanda Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafına və müasir logistika mərkəzi kimi mövqeyinin daha da gücləndirilməsinə xidmət edəcək", - deyə F.Əliyev qeyd edib.

*Mübariz FEYİZLİ*

# Ölkəmiz beynəlxalq iqlim diplomatiyasına böyük töhfələr verir

## Azərbaycan bu il UNFCCC-nin ikinci “İqlim Həftəsi”nə ev sahibliyi edəcək




Azərbaycan COP29 Sədrliyindən sonra da beynəlxalq iqlim diplomatiyasında fəal rolunu uğurla davam etdirir. Artıq üçüncü ildir təşkil olunan, dayanıqlı beynəlxalq platformaya çevrilmiş və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində danışıqlar qruplarının sədrlərini, eləcə də bir sıra Tərəf dövlətlərin nümayəndə heyətlərinin rəhbər iqlim danışıqçılarını bir araya gətirən Şamaxı Toplantısı bunun bariz nümunəsidir. Toplantı iqlim danışıqlarının mühüm qeyri-rəsmi platformalarından biri kimi COP prosesinə mühüm töhfə verməkdə davam edir.

Toplantı iqlim dəyişikliyi sahəsində il ərzində keçirilən nüfuzlu beynəlxalq tədbirlər sırasında özünəməxsus yer tutmağa başlayıb. Belə ki, ənənəvi olaraq illik iqlim diplomatiyası təqvimi Tokioda baş iqlim danışıqçılarının iştirakı ilə keçirilən “Yaponiya-Braziliya Dialoqu” ilə başlayır. Ardınca aprel-may aylarında nazirlər səviyyəsində təşkil olunan “Petersberq İqlim Dialoqu” (Berlin) və “Kopenhagen Nazirlər Görüşü” keçirilir. İyun ayında isə Bonnda UNFCCC-nin Yardımçı Orqanlarının yay sessiyaları baş tutur. Bonn Konfransından dərhal sonra isə adətən Avropa İttifaqı, Çin və Kanadanın birgə təşkil etdiyi “İqlim Fəaliyyəti üzrə Nazirlər Toplantısı” (MOCA) keçirilir. Bu kontekstdə artıq üçüncü ildir keçirilən Şamaxı Toplantısı Bonn sessiyası ilə Pre-COP arasındakı dövrdə iqlim danışıqları təqvimində yaranan boşluğu dolduran mühüm platforma kimi formalaşıb. Toplantının Yardımçı Orqanların yay sessiyasının bitməsindən təxminən bir ay sonra keçirilməsi Bonnda əldə olunan nəticələrin irəli aparılmasına, mövcud fikir ayrılıqlarının konstruktiv və səmimi dialoq vasitəsilə yaxınlaşdırılmasına və tərəflər arasında etimadın möhkəmləndirilməsinə mühüm töhfə verir. Toplantının qeyri-rəsmi formatda və açıq müzakirə mühitində təşkili iştirakçı dövlətlərə mövqelərini daha sərbəst ifadə etmək, qarşılıqlı anlayışı gücləndirmək və mümkün kompromis istiqamətlərini müəyyənləşdirmək imkanı yaradır.

Bu il Şamaxı Toplantısı iyulun 22-23-də COP31 Sədrliyi (Türkiyə və Avstraliya) ilə əməkdaşlıq çərçivəsində keçirilib. Tədbirdə COP31 Sədrliyi (Türkiyə və Avstraliya), Pre-COP31 və onun liderlər seqmentinə ev sahibliyi edəcək Fici və Tuvalu, COP32-yə sədrlik edəcək Efiopiya, Avropa İttifaqı Şurasına cari sədrlik edən İrlandiya, eləcə də Aİ-yə üzv Almaniya, İtaliya, Çexiya və İsveç, həmçinin Çin, Rusiya, Misir, Pakistan, Keniya, Nigeriya, daxil olmaqla 34 ölkədən və UNFCCC Katibliyindən ümumilikdə 70-dən çox nümayəndə iştirak edib.

Toplantı əvvəlki illərdə olduğu kimi, iqlim danışıqları gündəliyinin əsas istiqamətlərinə, o cümlədən iqlim maliyyəsi, ədalətli keçid, iqlim dəyişmələrinin nəticələrinə uyğunlaşma və istixana qazı emissiyalarının azaldılması məsələlərinə, habelə COP31 Sədrliyinin prioritetlərinə həsr edilib. Bu çərçivədə cari ilin iyun ayında Bonnda keçirilən UNFCCC Yardımçı Orqanlarının 64-cü sessiyasının nəticələri, həmin sessiyada müzakirə olunan əsas məsələlər və onların COP31 çərçivəsində inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Builki Şamaxı Toplantısında COP29, COP30 və COP31 sədrliklərinin həyata keçirdiyi “Belem 1.5 Missiyası” Troika mandatının icrası ilə bağlı müzakirələr aparılıb. Belə ki, COP28-də UNFCCC-yə Tərəf dövlətlər tərəfindən Birləşmiş Ərəb Əmirlikləri (COP28), Azərbaycan (COP29) və Braziliya (COP30) sədrliklərinə Paris Sazişi çərçivəsində milli səviyyədə müəyyən edilən töhfələrin (NDC) hazırlanmasına dəstəyin göstərilməsi məqsədilə “1.5 Missiyasına Doğru Yol Xəritəsi” (Roadmap to Mission 1.5) adlı Troika mandatı həvalə olunub.

Mandatın COP30 çərçivəsində uğurla yekunlaşmasından sonra Tərəf dövlətlər COP29, COP30 və COP31 sədrliklərinə “Belem 1.5 Missiyası” adlı yeni Troika mandatını veriblər. Yeni mandat ölkələrin milli səviyyədə müəyyən edilən töhfələrinin (NDC) və milli uyğunlaşma planlarının (NAP) hazırlanması və həyata keçirilməsinin təşviqinə, bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, habelə əldə olunan irəliləyişin qiymətləndirilməsinə yönəlib. Mandata uyğun olaraq, COP31-dən əvvəl bu istiqamətdə görülən işləri əks etdirən hesabatın hazırlanaraq Tərəf dövlətlərə təqdim edilməsi nəzərdə tutulur. Azərbaycan isə Braziliya, Türkiyə və Avstraliya ilə birlikdə bu mandatın icrası üzrə əməkdaşlığını davam etdirir.

Şamaxı Toplantısı çərçivəsində görülən işlər barədə iştirakçılara ətraflı məlumat verilib, nümayəndələrin rəy və təklifləri dinlənilib, eləcə də hesabatın hazırlanması prosesi və onun mümkün nəticələri ətrafında fikir mübadiləsi aparılıb. Tədbir iştirakçıları isə Şamaxı Toplantısının dayanıqlı beynəlxalq platformaya çevrilməsini yüksək qiymətləndirib və 2027-ci ildə COP32-yə ev sahibliyi edəcək Efiopiya nümayəndə heyəti növbəti ilin iyul ayında Azərbaycanın birgə təşkilatçılığı ilə dördüncü Şamaxı Toplantısının da keçirilməsinə hazır olduqlarını bildiriblər.

Ümumiyyətlə, Azərbaycan Şamaxı Toplantısını dayanıqlı beynəlxalq platformaya çevirməklə yanaşı, qlobal iqlim diplomatiyasında başqa istiqamətlərdə də fəal rolunu davam etdirir. Bu baxımdan, COP30-da ölkəmizə iqlim gündəliyinin prioritet istiqamətlərinin irəlilədilməsi məqsədilə ikinci dəfə Troika mandatının həvalə edilməsi Azərbaycanın artan beynəlxalq nüfuzunun və etibarlı tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir. COP sədrliyini başa vuran dövlətə yenidən belə mühüm mandatın verilməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın liderliyinə və vasitəçilik potensialına yüksək etimadını bir daha təsdiq edir. Eyni zamanda, COP30 Sədri tərəfindən COP31-in ev sahibi ölkəsinin müəyyən edilməsi ilə bağlı danışıqların aparılması üçün Azərbaycan və Braziliyanın xarici işlər nazirlərinin müavinlərinə xüsusi mandat verilib. Azərbaycan və Braziliya nümayəndələrinin Türkiyə, Avstraliya və Qərbi Avropa və Digərləri Qrupu (WEOG), eləcə də UNFCCC Katibliyi ilə iki həftə ərzində apardıqları intensiv danışıqlar nəticəsində COP31-in ev sahibi ölkəsinin müəyyənləşdirilməsi mümkün olub. Həmçinin COP29-da Azərbaycana və Braziliyaya inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyəsinin illik ən azı 1,3 trilyon ABŞ dollarına çatdırılması məqsədilə “Bakıdan Belémə Yol Xəritəsi” (Baku to Belem Roadmap to 1.3T) hazırlanması mandatı verilib. Bu mandat çərçivəsində hər iki sədrliyin birgə hazırladığı yekun hesabatda ilk dəfə olaraq qlobal iqlim maliyyəsinin illik trilyon ABŞ dolları səviyyəsini aşmasına imkan verə biləcək siyasət istiqamətləri və maliyyələşdirmə mexanizmləri sistemli şəkildə təqdim edilib.

COP30-da Yol Xəritəsinin təqdim edilməsindən sonra Azərbaycan və Braziliya onun nəticələrinin təşviqi və tərəf dövlətlərlə dialoqun davam etdirilməsi istiqamətində ortaq fəaliyyətlərini davam etdirirlər. Bundan əlavə, COP30-da Paris Sazişinin Qlobal Qiymətləndirilməsi (Global Stocktake - GST) üzrə üç əsas danışıqlar prosesinin irəlilədilməsi məqsədilə COP30 Sədrliyi tərəfindən Azərbaycan və Norveçə “Nazirlər Cütlüyü” (Ministerial Pair) mandatı həvalə edilib. Bu mandat çərçivəsində Azərbaycan və Norveç bütün danışıqlar qrupları və çoxsaylı Tərəf dövlətlərlə intensiv məsləhətləşmələr aparıb, fikir ayrılıqlarının yaxınlaşdırılmasına və yekun qərarların konsensus əsasında qəbul edilməsinə mühüm töhfə verib.

Həmçinin Azərbaycan bu il UNFCCC-nin ikinci “İqlim Həftəsi”nə ev sahibliyi edəcək. Sentyabrın 7-11-də keçiriləcək “İqlim Həftəsi” çərçivəsində UNFCCC Katibliyi, Türkiyə, Avstraliya, Braziliya, eləcə də ev sahibi ölkə kimi Azərbaycan tərəfindən 40-dan artıq tədbirin keçirilməsi planlaşdırılır. İştirakçıların sayı və tədbirlərin miqyasına görə UNFCCC-nin “İqlim Həftəsi” COP və UNFCCC Yardımçı Orqanlarının yay sessiyasından sonra təşkil olunan ən böyük beynəlxalq iqlim tədbirlərindən biri hesab olunur.

Beləliklə, Azərbaycan COP30 Sədrliyi, COP31 Sədrliyi (Türkiyə və Avstraliya) və digər tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində qlobal iqlim gündəliyində duran əsas məsələlərin irəlilədilməsi, yeni Troika mandatının icrası və COP31-in uğurlu nəticələrinin təmin olunması istiqamətində fəal rol oynamaqda davam edir. Bu fəaliyyətlər Azərbaycanın COP29 Sədrliyindən sonra da qlobal iqlim idarəçiliyində etibarlı tərəfdaş, konstruktiv vasitəçi və beynəlxalq iqlim diplomatiyasının aparıcı iştirakçılarından biri kimi mövqeyini daha da möhkəmləndirdiyini nümayiş etdirir.

*N.BAYRAMLI*

# Azərbaycanın özəl neft-qaz sektoru üçün tarixi mərhələ

Bakı dünyada “Neft akademiyası” kimi tanınır ki, bu da təsadüfi deyil. Tarixən Azərbaycanda neft hasilatı və emalı sahələrində dünya üzrə bir sıra ilklərə imza atılıb. O cümlədən dənizdə neftçıxarmanın əsası da məhz Bakıda qoyulub.

Ənənələr unudulmur. Müstəqillik dövründə Azərbaycanın dövlət neft şirkəti olan SOCAR, eləcə də neft-qaz sahəsində ixtisaslaşmış bir sıra özəl şirkətləri öz fəaliyyətlərini artıq beynəlxalq səviyyəyə yüksəltməyə nail olublar. Respublikamızın ilk özəl neft-qaz şirkətləri qrupu olan GL Groupun bu günlərdə ABŞ-ın Texas ştatının Hyuston şəhərində Midland yaxınlığında yerləşən, hazırda istismar edilən dörd neft-qaz yatağında hasilat aktivlərinin satın alınmasını tamamladığını elan etməsi bunun daha bir təsdiqidir. Satın alınmış aktivlərin tərkibinə 200-dən çox aktiv neft hasilatı quyusu daxildir. GL Group həmçinin həmin aktivlərin tam operatorluğunu rəsmi olaraq öz üzərinə götürüb.

## GL-in inkişaf yolu

2019-cu il 15 aprel tarixində təsis edilən GL şirkəti Azərbaycanın ilk özəl enerji şirkəti kimi fəaliyyətə başlayıb. GL şirkəti daha sonra əhəmiyyətli dərəcədə böyüyərək, 1 may 2024-cü ildə respublikamızın ilk özəl enerji şirkətləri qrupu olaraq GL Group-a çevrilib.

GL Group-un rəhbərlik komandası neft-qaz sahəsində geniş beynəlxalq təcrübəyə malik olan mütəxəssislərdən ibarətdir. Qurum strateji aktivlərin əldə edilməsi, həmçinin sərmayələr vasitəsilə mükəmməlliyi təmin etməyi və mühüm dəyər yaratmağı öhdəlik olaraq üzərinə götürüb.

GL Group Azərbaycanda beş mühüm yataqda - Salyan rayonunda “Kürsəngi” və “Qarabağlı”, Abşeron yarımadasında “Buzovna-Maştağa”, “Qala”, “Zirə” yataqlarında neft-qaz əməliyyatları həyata keçirir.

2021-ci ildə GL Çin Milli Neft Korporasiyasının Salyan Oil Limited şirkətindəki payını satın alıb. 2022-ci ildə GL daha da böyüyərək, SOCAR-dan üç neft-qaz yatağı əldə edərək Taghiyev Operating Company-ni təsis edib. 2022-ci ilin sonlarında GL ilk növbədə peşəkar neft yataqları xidmətləri, o cümlədən quyuların karotaj tədqiqatı və texniki xidməti, eləcə də quyuların təmiri qurğusunun istismarı xidmətləri sahəsində ixtisaslaşmış GLTS adı ilə tanınan “GL Technical Services” şirkətini təsis edib. GLTS həmçinin enerji sənayesindəki digər xidmətləri də daxil etmək üçün biznes axınının şaxələndirilməsinə diqqət yetirir.

GL şirkəti 2024-cü ilin birinci yarısında Buzovna-Maştağa, Qala və Zirə neft yataqlarında altı yeni quyunun qazılmasını minimum icbari iş proqramı çərçivəsində insidentsiz, ətraf mühitə sıfır zərərlə və ən qısa müddətdə uğurla başa çatdırıb. Həmçinin, 2023-cü ildə GL-in afilə şirkəti olan Taghiyev Operating Company-nin istismar etdiyi, yuxarıda qeyd olunan yataqlarda neft hasilatının 15 faizdən çox olan azalma tempini dayandırmağa nail olub və həmin ilin əvvəli ilə müqayisədə gündəlik hasilatı artırıb.

Bundan əlavə, GL özünün afilə şirkəti olan Salyan Oil Limited vasitəsilə “Kürsəngi” və “Qarabağlı” neft yataqlarında on doqquz il davam edən hasilat azalmasını dayandırıb və hasilat həcmini artırmağa başlayıb. Bütün bunlara böyük kapital investisiyası olmadan əməliyyat səmərəliliyi proqramları vasitəsilə nail olunub.




2025-ci ildə GL Group Azərbaycan tarixində ilk dəfə olaraq quruda yerləşən dərin neft laylarına çatmaq üçün 4400 metr dərinlikdə planlaşdırılmış yanal uzunluğu təxminən 400 metr olan horizontal neft quyusunun qazılması proqramına start verib. Qeyd olunan horizontal quyunun qazılması Salyan rayonundakı “Kürsəngi” və “Qarabağlı” yataqlarında qazma işlərində yaranmış 14 illik fasiləyə son qoyaraq həmin yataqlarda üç yeni mürəkkəb dərin quyunun qazılmasını nəzərdə tutan daha iri miqyaslı qazma proqramı çərçivəsində yerinə yetirilir.

GL Group mövcud səmərəli aktivlərin əldə edilməsi və onların hasilatının optimallaşdırılması istiqamətində sərmayələr qoyur. Beləliklə, 2024-cü ilin oktyabr ayında GL Group Türkiyədəki təbii qaz biznesinə daxil olaraq ilk beynəlxalq strateji addımını atıb. GL Groupun regional orta ölçülü enerji şirkəti olmaq strategiyasına əsaslanan bu addım onu beynəlxalq enerji oyunçusuna çevirib.

Elə həmin ildə GL Group Türkiyənin şimal-qərbində Trakya hövzəsində (Thrace Basin) yerləşən F17-b4 blokunun 100 faiz mülkiyyətçisi olan və lisenziyasının operatoru olan Kanada şirkəti Gazelle Energy Limited şirkətində 25 faiz səhm payını satın alıb.

GL Group beynəlxalq standartları və texnologiyaları qəbul etməklə hasilatda, əməyin və ətraf mühitin mühafizəsində mükəmməlliyə nail olmağı öhdəlik olaraq üzərinə götürüb. Təməlində beynəlxalq standartlara və qabaqcıl texnologiyaya sadiqliyi qoruyan GL Group, nəinki gözləntilərə cavab verən, həm də onları üstələyən hasilat mükəmməlliyinə nail olmağa çalışır. Qurumun əməliyyatları hər addımda səmərəliliyi və innovasiyanı təmin edən Əməliyyat İdarəetmə Sistemi (OMS) vasitəsilə idarə olunur.

## Yeni bazarlara giriş strategiyasının uğurlu nəticəsi

Yuxarıda bəhs olunan sövdələşmə GL Groupu ABŞ-də istismarda olan hasilat aktivlərinə sahib olan və onları operator kimi idarə edən ilk Azərbaycan şirkətlər qrupu edib. Bu, Azərbaycanın özəl neft-qaz sektoru üçün tarixi mərhələ olmaqla yanaşı, GL Groupun ABŞ enerji sənayesinin mərkəzində mövcudluğunu təmin edir.

Perm hövzəsində yerləşən satın alınmış aktivlər GL Groupu ABŞ-ın ən böyük neft-qaz hasilatı regionunda və dünyanın quruda neft-qaz fəaliyyəti üzrə əsas mərkəzlərindən birində mövqeləndirir. Qərbi Texas və Nyu-Meksiko ştatının cənub-şərq hissəsini əhatə edən Perm hövzəsi təxminən 223 min kvadratkilometr ərazini əhatə edir. 2025-ci ildə hövzədə gündəlik təxminən 6,6 milyon barel xam neft hasil olunub ki, bu da ABŞ-ın ümumi neft hasilatının təxminən yarısına və qlobal xam neft hasilatının 8 faizdən çoxuna bərabərdir. Eyni zamanda, hövzədə 2025-ci ildə gündəlik təxminən 27,6 milyard kub fut əmtəəlik təbii qaz hasil olunub ki, bu da ABŞ-ın əmtəəlik qaz hasilatının təxminən 23 faizini və qlobal təbii qaz hasilatının təxminən 7 faizini təşkil edir.

Bu miqyasda, yüksəktexnoloji səviyyəyə və intensiv rəqabət mühitinə malik hövzədə hasilatda olan aktivlərin həm sahibi, həm də operatoru olmaq GL Group üçün mühüm mərhələdir. Bu satınalma GL Groupun 2024-cü ildə Türkiyənin neft-qaz hasilatı bazarına daxil olmasından sonra beynəlxalq inkişaf strategiyasının uğurlu icrasına töhfə verir. Texasdakı satınalma GL Groupun ABŞ-də və digər beynəlxalq neft-qaz bazarlarında gələcək inkişafı üçün möhkəm zəmin yaradır.

Bəhs olunan sövdələşmə bir ildən artıq davam edən ciddi qiymətləndirmənin, tərəfdaşlıq əlaqələrinin diqqətlə qurulmasının və komandanın liderliyi, peşəkarlığı, intizamı və işə sadiqliyi sayəsində məqsədyönlü şəkildə həyata keçirilmiş yeni bazarlara giriş strategiyasının nəticəsidir. Bu, GL Groupun strateji, əməliyyat və investisiya məqsədlərinin həyata keçirilməsində mühüm mərhələdir.

“Bu, GL Groupda hər kəs üçün qürurverici andır. Bu satınalma dünyanın ən böyük və ən rəqabətli neft-qaz hasilatı bazarında mövcudluğumuzu təmin edən strateji mərhələdir. Bu addım şaxələndirilmiş beynəlxalq kəşfiyyat və hasilat biznesinin qurulmasına dair uzunmüddətli baxışımızı əks etdirir və ABŞ-də davamlı inkişafımız üçün güclü platforma yaradır”, - deyə GL Groupun Baş icraçı direktoru və Məşvərət Şurasının sədri Asif Zeynalov bildirib. “Bu, ABŞ bazarına atdığımız ilk, lakin çox mühüm addımdır. Biz böyüməyə və mövcudluğumuzu genişləndirməyə davam edəcəyik”, - deyə qurum rəsmisi qeyd edib.

## GL Group və Baker Hughes şirkətləri arasında mühüm saziş imzalanıb

GL Group və Baker Hughes şirkətləri arasında strateji əlaqələrin möhkəmləndirilməsinə və gələcək əməkdaşlıq üçün çərçivənin yaradılmasına yönəlmiş beşillik Strateji Əməkdaşlıq Xidmətləri Sazişi imzalanıb.

Əməkdaşlıq şirkətlərə hər bir tərəfin təcrübə, imkan və texnoloji ekspertizasından faydalanaraq qarşılıqlı faydalı imkanları araşdırmağa şərait yaradacaq. Əməkdaşlığın GL Groupun əməliyyat səmərəliliyinin artırılmasına, texniki potensialının inkişafına, qabaqcıl texnologiyalara çıxışının genişləndirilməsinə və Azərbaycanda uzunmüddətli inkişafına töhfə verəcəyi gözlənilir.

“Bu saziş Baker Hughes ilə tərəfdaşlığımızın möhkəmləndirilməsi və GL Groupun uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsi istiqamətində mühüm addımdır”, - deyə Asif Zeynalov bildirib. Fikirlərinə davam edən qurum rəsmisi deyib: “Bu tərəfdaşlıq bizim qlobal imkanlara, qabaqcıl texnologiyalara və əməliyyat mükəmməlliyinə çıxışımızı təmin edir. Bunlar davamlı inkişafımızı və uzunmüddətli uğurumuzu dəstəkləyəcək əsas amillərdir”.

“Baker Hughes bütün dünyada əməliyyat göstəricilərini yaxşılaşdıran, səmərəliliyi artıran və riskləri azaldan texnologiyalara davamlı olaraq sərmayə yatırır”, - deyə Baker Hughes şirkətinin Baş vitse-prezidenti Cim Seşns bildirib. “Bu strateji əməkdaşlıq çərçivəsində məqsədimiz GL Groupun enerji aktivlərinin, eləcə də bütövlükdə regionun enerji sektorunun dəyərini maksimum dərəcədə artıracaq innovativ texnoloji həllər hazırlamaq və tətbiq etməkdir”, - deyə Cim Seşns vurğulayıb.

*MÜBARİZ*

# Nəsillərin yaddaşında yaşayan insan

## Anadan olmasının 80 illiyi münasibətilə





Elə insanlar var ki, onların həyatı ailələrinin və yaşadıqları dövrün tarixinin ayrılmaz hissəsinə çevrilir. Onların dünyadan köçünü yalnız yaşadıqları illərlə ölçmək mümkün deyil, çünki onlar doğmalarının, dostlarının və onları şəxsən tanımaq xoşbəxtliyini yaşamış hər kəsin yaddaşında yaşamaqda davam edirlər. Məhz belə insanlardan biri də bu il 80 yaşı tamam olacaq atam idi.

Onun həyat yolu asan olmayan bir dövrə təsadüf etmişdi. Bu dövr hər şeydən əvvəl öz işinə sədaqət tələb edirdi. O, ölkəsinin rifahı naminə yaradan və vicdanla çalışan nəslin nümayəndəsi idi. Məhz bu keyfiyyətlər onun həyatının hər mərhələsini müəyyənləşdirərək ətrafındakıların hörmətini və qazandığı nüfuzu formalaşdırmışdı.

Fəaliyyət göstərdiyi bütün sahələrdə o, yüksək mənəviyyətə, dürüstlüyə və prinsipiallığa malik insan olaraq qaldı. Onu ilk növbədə borc hissi, ləyaqət, özünə qarşı tələbkarlıq, insanlara hörmət və ehtiyacı olan hər kəsə yardım etməyə hazır olması fərqləndirirdi.

Lakin onun həyatının əsas mənası hər zaman ailəsi idi. O, övladları üçün sevən ata, etibarlı dayaq və şəxsi nümunəsi ilə tərbiyə edən bir insan idi. Atamızdan aldığımız ən qiymətli irs də məhz bu mənəvi dəyərlər olub.

Azərbaycanın dövlət xadimi Afiyəddin Cəlilov 1 avqust 1946-cı ildə ziyalı ailəsində anadan olmuşdur. Atası Cəlil Cəlilov və anası Zəhra xanım bütün ömürlərini təhsil və gənc nəslin tərbiyəsinə həsr etmişlər.

Naxçıvanda orta məktəbi bitirdikdən sonra Afiyəddin Cəlilov Sankt-Peterburq Plekhanov adına Universitetə daxil olur. Universiteti bitirdikdən sonra doğma Naxçıvana qayıdır və əmək fəaliyyətinə başlayır. Əvvəlcə Duzdağda mühəndis işləyir. 1981-1990-cı illərdə Bakı şəhəri Nəsimi Rayon Partiya Komitəsinin birinci katibi, Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri, Naxçıvan MR və Azərbaycan Respublikasının Ali Sovetlərinin deputatı kimi məsul vəzifələrdə çalışır. 1994-cü ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının prezidenti seçilir.

Afiyəddin Cəlilov son dərəcə ədalətli və cəsarətli insan idi. 1988-1992-ci illərdə düşmən blokadası dövründə Naxçıvanın müdafiəsində onun müstəsna xidmətləri olmuşdur. Onun təşəbbüsü ilə Sədərək-Türkiyə istiqamətində “Həyat Körpüsü” inşa edilir, Naxçıvan hava limanında yeni üç kilometrlik uçuş-eniş zolağı salınır. Pedaqoji İnstitutun bazasında Dövlət Universiteti yaradılır, yeni fakültələr açılır. Muxtar Respublika ilə İran İslam Respublikası və Türkiyə Respublikası arasında iqtisadi və humanitar sahələr üzrə ilk sazişlər imzalanır. Qonşu ölkələrlə sıx əməkdaşlıq Naxçıvan əhalisinin ərzaq, elektrik enerjisi və yanacaqla təmin olunmasına mühüm töhfə verir.

Atamsız keçən illər əvəzolunmaz itki hissi ilə doludur. Bu kədər həmişəlik qəlbimdə yaşayır. Atamın xatirəsi həyatımın ayrılmaz hissəsidir. O, qəlbimdə, düşüncələrimdə və bizə miras qoyduğu mənəvi dəyərlərdə yaşayır.

Əziz atam! Səni çox sevirəm, adınla fəxr edirəm və birlikdə keçirdiyimiz günlər üçün çox darıxıram. Sənin kimi bir atanın qızı olmaq xoşbəxtliyini mənə bəxş etdiyi üçün Uca Allaha sonsuz minnətdaram. Ömrüm boyu sənə dərin hörmət bəsləyəcək və sənə layiq övlad olmağa çalışacağam.

*Nigar Cəlilova*

# BMT TŞ qərarlarını effektli icra etməlidir

## Azərbaycan təşkilatda islahatların aparılmasını dəstəkləyir

Azərbaycan BMT-də islahatların həyata keçirilməsinin tərəfdarıdır. Dövlətimizin bu mövqeyi bugünlərdə bir daha təşkilatın tribunasından səsləndirilib. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasının qərarlarının icrasının vacibliyi vurğulanıb. Belə ki, “Mübahisələrin dinc yolla həlli mexanizmlərinin gücləndirilməsi: BMT Təhlükəsizlik Şurasının 2788 (2025) saylı qətnaməsinin davamı” mövzusunda keçirilən yüksəksəviyyəli açıq debatda Azərbaycanın təşkilatdakı daimi nümayəndəsinin müavini Elvin Əşrəfzadə bildirib ki, dinc yolla nizamlanma bütün mübahisələrin erkən, ədalətli və davamlı həllinə xidmət etməlidir, vasitəçilik qərəzsiz olmalı, BMT Nizamnaməsi və beynəlxalq hüquqa uyğun şəkildə aparılmalıdır.

### 27 ildən sonra...

Diplomat tədbirlə bağlı özünün “X” sosial şəbəkə hesabında yazıb: “Dinc həll mexanizmlərinin effektivliyinin artıq qəbul edilmiş qərarların icrasından asılı olduğu qeyd edilib”. Bu xüsusda, Azərbaycanın öz təcrübəsinə istinad edilib. Belə ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin aydın tələblərinə baxmayaraq, təxminən otuz il ərzində icra olunmayıb: “Münaqişənin ağır nəticələrini aradan qaldıran, dağıdılmış şəhərləri yenidən quran, məhv edilmiş ətraf mühiti və biomüxtəlifliyi bərpa edən, məcburi köçkün əhalinin öz evlərinə təhlükəsiz şəkildə qayıtmasına kömək edən ölkələrlə daha böyük həmrəyliyin əhəmiyyətinə xüsusi diqqət çəkilib”.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası tərəfindən Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan ərazilərinin işğalı ilə bağlı 1993-cü ildə dörd qətnamə (822, 853, 874 və 884) qəbul olunub. Bu sənədlərin hər biri Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü təsdiqləyib və Ermənistanın işğalçı qüvvələrinin Qarabağdan dərhal çıxarılmasını tələb edib. Qətnamələr kağız üzərində qaldığı üçün Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı ən böyük təsisatın müvafiq qərarlarını özü icra edib və torpaqlar erməni işğalından azad olunub. 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

### Beynəlxalq güclərin inhisarında olan təşkilat

Ümumiyyətlə, BMT strukturlarında islahatların aparılması məsələsi uzun müddətdir ki, dünya ölkələrinin gündəmindədir. Xüsusilə, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. Bu zərurəti BMT-nin Baş katibi Antonio Quterreş də etiraf edib. Baş katib rəhbərlik etdiyi təşkilatın modernləşdirilməsinə davam edən təkanların bir hissəsi olaraq, BMT-nin effektiv, qənaətcil və xidmət etdiyi insanlara cavabdeh olmasını təmin etmək məqsədilə islahatlara üstünlük verdiyini deyib. O, həmçinin Baş Assambleya sədrinin rəhbərliyi altında əldə edilmiş irəliləyişlə bağlı bütün üzv dövlətlərlə yaxından və müntəzəm olaraq məsləhətləşmələr apararaq irəliyə doğru istiqamət götürmək və konkret təkliflər təqdim etməyi öhdəsinə götürüb. Quterreş əlavə edib: “Mənim məqsədim səlahiyyətlərimə aid olan sahələrdə mümkün qədər tez hərəkət etmək və üzv dövlətləri özlərindən asılı olan bir çox qərarları nəzərdən keçirməyə çağırmaqdır. Hazırda BMT-nin fəaliyyətinə ehtiyac böyükdür və məqsəd aydındır: insanlara xidmət edən və XXI əsrə uyğunlaşdırılmış daha güclü və daha effektiv Birləşmiş Millətlər Təşkilatı formalaşdırmaq”.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma 5 daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur. Lakin Azərbaycana münasibətdə 1993-cü ildə qəbul olunmuş qətnamələr 27 il kağız üzərində qaldığı üçün dövlətimiz öz gücünə həmin qətnamələri icra etməli oldu.



### “Dünya beşdən böyükdür” çağırışına Azərbaycandan dəstək

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından “Dünya beşdən böyükdür!”, - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. “Beş ölkə arasında başəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil”, - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan məyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb.

Artıq dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur.

*Nardar BAYRAMLI*

# Medianın İnkişafı Agentliyi Bəyanat yayıb




Medianın İnkişafı Agentliyi İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektlərinin, o cümlədən AzTV-nin “düşmən media qurumları” siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi ilə bağlı Bəyanat yayıb.

AZƏRTAC Bəyanatı təqdim edir.

“İran İslam Respublikasının Kəşfiyyat Nazirliyi tərəfindən bəzi xarici media subyektləri, o cümlədən Azərbaycan Respublikasının dövlət televiziya kanalı olan AzTV-nin “düşmən media qurumları” siyahısına daxil edilməsi və həmin qurumlarla əməkdaşlıq edən şəxslərin cinayət məsuliyyəti ilə hədələnməsi təəccüb doğurur.

Heç şübhəsiz ki, Azərbaycan Respublikası jurnalistlərin peşə fəaliyyətinin müdafiəsinə sadiq olmaqla yanaşı, qarşılıqlılıq prinsipinin tətbiqini də təmin edir. Belə ki, “Media haqqında” Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə əsasən, Media Reyestrinə daxil edilmiş jurnalistlərin peşə fəaliyyətinin həyata keçirilməsinə digər dövlətlər tərəfindən xüsusi məhdudiyyətlər qoyulduqda həmin məhdudiyyətlər tətbiq etmiş dövlətin jurnalistlərinə Azərbaycan Respublikasında da eyni məhdudiyyətlər qoyula bilər.

Müvafiq maddənin tələbləri və qarşılıqlılıq prinsipi nəzərə alınaraq, Azərbaycan Respublikasının milli maraqlarına zidd fəaliyyət göstərən, ölkəmizin suverenliyi, konstitusiya quruluşu, ərazi bütövlüyü və milli təhlükəsizliyi əleyhinə təbliğat aparan media subyektlərinin - “Səhər” telekanalı və “Mehr” xəbər agentliyinin, həmçinin bu subyektlərin nümayəndələrinin Azərbaycan Respublikası ərazisində fəaliyyəti qanunsuz hesab edilir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün media subyektlərini və jurnalistləri ölkəmizin milli maraqlarına qarşı fəaliyyət göstərən yuxarıda adları çəkilən media qurumları və onların əlaqəli nümayəndələri ilə əməkdaşlıqdan çəkinməyə çağırır, media sahəsində beynəlxalq əməkdaşlığın yalnız qarşılıqlı hörmət və jurnalistlərin peşə müstəqilliyi əsasında həyata keçirilməli olduğunu bir daha vurğulayırıq”, - deyə Bəyanatda vurğulanıb.

# NATO-nun yeni güc mərkəzi formalaşır...

## Ankara sammitinə sözardı

Müasir beynəlxalq münasibətlərdə sammitlərin əksəriyyəti əvvəlcədən hazırlanmış siyasi qərarların ictimaiyyətə təqdim olunması funksiyasını daşıyır. Ankara NATO Sammiti isə bu baxımdan fərqlənir. Burada əsas məsələ qəbul olunan sənədlər deyil, beynəlxalq güc balansında yaranan yeni siyasi reallığın nümayiş etdirilməsiydi. Sammit göstərdi ki, NATO daxilində qüvvələr nisbəti tədricən dəyişir və Alyansın gələcək təhlükəsizlik strategiyasında Türkiyənin rolu əvvəlki illərlə müqayisədə xeyli artıb.

Son ildə Türkiyə haqqında Qərbdə fərqli yanaşmalar mövcud idi. Ankara bəzən NATO daxilində "çətin tərəfdaş" kimi qiymətləndirilir, S-400 zenit-raket komplekslərinin alınması və F-35 proqramı ətrafında yaranmış fikir ayrılıqları münasibətlərin ən gərgin mərhələlərindən biri sayılırdı. Lakin beynəlxalq siyasətdə dəyişməyən bir qanun var: geosiyasi reallıq siyasi emosiyalardan daha güclüdür. Bu gün ABŞ da, Avropa da anlayır ki, Türkiyəsiz NATO-nun cənub cinahının təhlükəsizliyi, Qara dəniz hövzəsinin nəzarətdə saxlanması, Yaxın Şərqdə sabitliyin təmin edilməsi, Cənubi Qafqazda strateji balansın qorunması mümkün deyil.

Türkiyə təkcə coğrafi mövqeyinə görə yox, hərbi potensialına görə də Alyansın əsas dayaqlarından biridir. ABŞ-dan sonra NATO-nun ən böyük silahlı qüvvələrindən birinə malik olan Türkiyə yüz minlərlə şəxsi heyətə, geniş quru qoşunlarına, müasir dəniz qüvvələrinə və sürətlə inkişaf edən hərbi hava imkanlarına sahibdir. Son illər milli müdafiə sənayesinə qoyulan investisiyalar sayəsində Ankara pilotsuz uçuş aparatları, zərbə sistemləri, raket texnologiyaları, hərbi gəmiqayırma və milli döyüş təyyarəsi proqramları üzrə ciddi irəliləyiş əldə edib. Bu dəyişiklik Türkiyəni silah alan dövlətdən müasir hərbi texnologiyalar istehsal və ixrac edən strateji gücə çevirib.

Məhz buna görə Ankara bu gün NATO üçün alternativi olmayan tərəfdaşdır.

ABŞ administrasiyaları dəyişsə də, Vaşinqtonun əsas geosiyasi maraqları dəyişmir. Amerika üçün Qara dəniz, Şərqi Aralıq dənizi, Yaxın Şərq və Cənubi Qafqaz vahid təhlükəsizlik məkanı kimi qiymətləndirilir. Bu təhlükəsizlik məkanında isə Türkiyə mərkəzi mövqedə dayanır. Son dövrlər Vaşinqtonla Ankara arasında siyasi dialoqun intensivləşməsi, müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində aparılan danışıqlar və NATO daxilində koordinasiyanın gücləndirilməsi göstərir ki, tərəflər fikir ayrılıqlarını tam aradan qaldırmasalar da, strateji əməkdaşlığı dərinləşdirmək üçün qarşılıqlı maraq prinsipinə söykənirlər.

F-35 proqramı ətrafında yaranmış fikir ayrılıqları uzun müddət ikitərəfli münasibətlərdə əsas mübahisə mövzularından biri olub. Hazırda da bu məsələ tam həll edilməyib. Bununla belə, müdafiə əməkdaşlığının genişlənməsi və qarşılıqlı etimadın artması gələcəkdə bu istiqamətdə yeni siyasi qərarların qəbul edilməsinə zəmin yarada bilər. Bu, mövcud geosiyasi şəraitdə istisna edilməsi mümkün olmayan ssenarilərdən biridir.

Türkiyənin güclənməsi Avropada da diqqətlə izlənir. Bunun səbəbi qorxu deyil, strateji reallığın dəyişməsidir. Ankara artıq Avropanın təhlükəsizlik hesablamalarında nəzərə alınmalı əsas aktorlardan biridir. Xüsusilə enerji marşrutları, miqrasiya axınlarının idarə olunması, Qara dəniz təhlükəsizliyi və müdafiə sənayesində qazandığı uğurlar Türkiyənin qərarlarının Avropa paytaxtlarında daha ciddi qiymətləndirilməsinə səbəb olur. Bu vəziyyət Ankara ilə əməkdaşlığı zəruri edir, eyni zamanda onun təsir imkanlarını da artırır.




Bu geosiyasi mənzərədə Azərbaycanın rolu ayrıca qeyd edilməlidir. Azərbaycan son illər yalnız enerji ixrac edən ölkə kimi yox, Avropa ilə Mərkəzi Asiyanı birləşdirən strateji nəqliyyat və logistika qovşağı kimi çıxış edir. Cənub Qaz Dəhlizi, Orta Dəhliz, Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər hövzəsində həyata keçirilən layihələr Bakının regional çəkisini əhəmiyyətli dərəcədə artırıb. Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi iki ölkənin münasibətlərini keyfiyyətcə yeni müttəfiqlik mərhələsinə yüksəldib və bu tərəfdaşlıq artıq regional təhlükəsizlik sisteminin əsas sütunlarından biri kimi qəbul olunur.

ABŞ üçün də Azərbaycanın əhəmiyyəti enerji resursları ilə məhdudlaşmır. Cənubi Qafqazda sabitliyin qorunması, Avropanın enerji təhlükəsizliyi, Orta Dəhlizin inkişafı və Mərkəzi Asiya ilə əlaqələrin genişləndirilməsi baxımından Bakı mühüm tərəfdaş olaraq qalır. Bu baxımdan ABŞ-Türkiyə-Azərbaycan arasında əməkdaşlığın dərinləşməsi yalnız üç ölkənin maraqlarına deyil, daha geniş regional sabitliyə gətirə bilər. Bunun üçün qarşılıqlı etimadın qorunması, iqtisadi və təhlükəsizlik layihələrinin davam etdirilməsi əsas şərtlərdən biridir.

Ankara Sammitinin ən mühüm siyasi nəticəsi ondan ibarətdir ki, NATO daxilində artıq yalnız hərbi imkanların yox, geosiyasi etibarlılığın da dəyəri artıb. Türkiyə öz etibarını həm coğrafiyası, həm hərbi gücü, həm də müdafiə sənayesinin inkişafı ilə nümayiş etdirir. Azərbaycan isə etibarlı tərəfdaş, enerji təhlükəsizliyinin təminatçısı və Avrasiya məkanında strateji bağlantı dövləti kimi öz mövqeyini möhkəmləndirir.

Bugünkü reallıq göstərir ki, XXI əsrin təhlükəsizlik arxitekturasında güc yalnız silahların sayı ilə ölçülmür. Güc etibarlı müttəfiqliklər qurmaq, strateji layihələr həyata keçirmək və dəyişən geosiyasi şəraitdə çevik uyğunlaşmaq bacarığı ilə müəyyən edilir. Ankara Sammiti məhz bu reallığı bir daha təsdiqlədi: gələcəyin təhlükəsizlik sistemi təkcə hərbi ittifaqlar üzərində yox, qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıqlar üzərində qurulacaq. ABŞ, Türkiyə və Azərbaycanın bu prosesdə oynaya biləcəyi rol isə qarşıdakı illərdə regional siyasətin mühüm istiqamətlərindən biri olaraq qalacaq.

*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Xəyanət üçün fürsət axtaranlar...

## Emin Hüseynov yenidən erməni qiyafəsində...

44 günlük Vətən müharibəsində qələbə qazanan Azərbaycan dövləti bu gün qlobal dünyanın azsaylı sabit inkişafa malik, o cümlədən, siyasi kataklizmlərdən uzaq ölkələrindən sayılır. Yeni nizamda Bakı istər regional inkişaf tempinin müəyyənləşdirilməsində, istərsə də qlobal təsnifatların təminində yaxından iştirak edir. Paralel olaraq yürüdülən sülh siyasəti bölgədə yeni münasibətlər sistemini bərqərar edib - yerləşdiyi regionun əsas iqtisadi-siyasi aktorundan orta güc statusuna keçid edən ölkəmiz Cənubi Qafqazın gələcəyi üçün hazırlanan strateji yol xəritəsinin müəllifidir.

Təbii ki, bu uğurlar dünyada birmənalı şəkildə həzm edilmir - Azərbaycanın inkişaf trayektoriyası, demokratik ənənələrə sadiqliyi, bütün addımlarında beynəlxalq hüquqa istinad etməsi və ədalətin bərqərarı üçün səy göstərməsi dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizi də narahat edir. Müxtəlif vasitələrlə ölkəmizdəki sabitliyə xələl gətirməyə çalışan bəzi mərkəzlərin, xüsusilə də erməni lobbisinin əsas "istinad nöqtələri" isə hər zaman olduğu kimi antimilli xainlər, Vətənə, dövlətə xəyanət üçün fürsət axtaranlardır.

### Emin Hüseynov və erməni "şərikləri"...

Bir zamanlar həmin ermənipərəst dairələrin, erməni lobbisinin pulu və dəstəyi ilə yaradılan "RATİ" adlanan buqələmun təşkilatın rəhbəri olmuş Emin Hüseynovun kimliyi Azərbaycan cəmiyyətinə yaxşı tanışdır. Xəyanət fürsətçisi, pul üçün bütün müqəddəs dəyərləri tapdamağa hazır olan bu "kimliyi" inkişaf etdirmək üçün E.Hüseynov özünü cəmiyyətə fərqli donlarda - gah KİV nümayəndəsi, gah QHT təmsilçisi, gah da siyasətçi kimi təqdim etməyə çalışıb. Bu uğurda uzun illər "tər tökən" E.Hüseynov şəxsi mənafeyi uğruna isə hər zaman Azərbaycanın milli maraqlarını tapdamağa hazır olduğunu göstərib. Bu dəfə də analoji mənzərənin şahidi oluruq. Belə ki, BT News Telegram-ın yaydığı məlumata görə, Emin Hüseynov erməni ictimai xadim Ovsep Xurşudyanla birgə yeni layihəyə başlayıb. Yeni layihənin ilk qonağı isə əvvəllər Azərbaycan ərazilərinin işğalını inkar edən David Stepanyan olub. Şou zamanı hər üç şəxs - Emin Hüseynov, Ovsep Xurşudyan və David Stepanyan Azərbaycandakı demokratiya səviyyəsini tənqid edib, Ermənistanın siyasi sistemini, seçkiləri tərifləyiblər. Onlar Ermənistan müxalifətinin təqiblərinə əhəmiyyət verməyiblər, bu barədə heç danışmayıblar. Halbuki Ermənistanda parlament seçkiləri ərəfəsində və sonra Paşinyan hakimiyyəti tərəfindən müxalifət liderlərinə qarşı repressiyalar, həbslər həyata keçirilib. Bu repressiya və həbslər indi də davam edir.

Şou zamanı David Stepanyan, həmçinin, Qərbi Azərbaycan konsepsiyasına qarşı çıxıb. Bundan başqa, Bakını Qarabağdakı kilsələri, erməni abidələrini dağıtmaqda, günahlandırıb. Ermənistanın işğal zamanı Azərbaycan ərazilərində apardığı tikintilərin beynəlxalq konvensiyalara əsasən qanunsuz olması, Azərbaycan mədəni irsinin məhv edilməsi barədə isə bir kəlmə də danışmayıb.

### Erməni yalanları artıq nə ayaq tutmur, nə də yerimir...

Təbii ki, bu layihənin "məqsədi" və ya hədəfi bəllidir - Azərbaycan 30 illik işğal faktına son qoymaqla erməni lobbisinə, erməni havadarlarına da ağır zərbə vurub. Bu gün regionda bütün proseslər məhz Bakının diqtəsi əsasında inkişaf edir. Bu isə erməni qazanından yemlənənlərin işini çətinə salır. Onların əlində qalan yeganə "silah" isə yalan və qərəzdir. Vurğulandığı kimi, Ermənistan "demokratiyası" üçün əldən-ayaqdan gedənlər niyə İrəvandakı siyasi böhrandan danışmırlar? Və ya Azərbaycan hansı kilsəni dağıdıb? Niyə o layihənin iştirakçıları 30 illik işğal dövründə ermənilərin Azərbaycanın qədim tarixi və mədəniyyət abidələrini, məscidləri, hətta qəbirləri belə dağıtmasını vurğulamırlar? Ermənilər işğal dövründə şəhər və kəndlərimizdəki mədəni irsimizə qarşı terror həyata keçiriblər və bu torpaqlardan Azərbaycan izini silməyə çalışıblar, amma nail ola bilməyiblər. Niyə bu məsələyə toxunulmayıb? Səbəb bəllidir - ermənilər hər zamankı kimi yalanı özləri üçün "fakt" seçərək hücum kampaniyası həyata keçirirlər. Amma bu cəhdlər artıq heç bir fayda vermir - çünki bütün dünya Qarabağda, vaxtilə işğal altında olan ərazilərdə baş verən vandalizmi öz gözləri ilə görüb.



### Qərbi Azərbaycan konsepsiyası erməni terrorunun ifşasıdır...

Qərbi Azərbaycan konsepsiyası isə vaxtilə Ermənistandan qovulmuş yüz minlərlə insanın fundamental hüquqlarının bərpası istiqamətində atılan uğurlu addımdır. Erməni faşizminin qurbanı olmuş və öz ata-baba yurdunda yaşamaq hüququndan məhrum edilmiş bu insanların hüquqlarının bərpası istiqamətində görülən işlərin erməni lobbisinin hədəfinə tuş gəlməsi də təəccüblü deyil - Qərbi Azərbaycan konsepsiyası ermənilərin işğal, terror, diskriminasiya, deportasiya siyasəti ilə bölgədə yaratdığı təhdidlərin ifşasıdır. Emin Hüseynovun digər ermənilərə qoşularaq bu konsepsiyanın əleyhinə getməsi isə onun bu millətdən, bu xalqdan olmadığını növbəti dəfə sübuta yetirir...

Təbii olaraq, bu layihədə Emin Hüseynov yenə də öz "ənənəsinə" sadiq qalaraq ermənilərdən betər erməni rolunda çıxış edib. O, həmsöhbətlərinə qarşı nəinki çıxmayıb, onların ritorikasına uyğun mövqe sərgiləyib, işğal zamanı Azərbaycan ərazilərində ermənilərin dağıtdığı məscidlərdən, mədəni-tarixi abidələrdən bəhs etməyib.

### Erməni yandaşı...

Göründüyü kimi, bu "layihə"nin ilk addımındaca məqsəd bəlli olur - Emin Hüseynov və onun erməni şərikləri obyektiv jurnalistika, hərtərfli, ədalətli müzakirə platforması yox, Azərbaycan əleyhinə informasiya kampaniyasında daha bir vasitə rolunu oynayacaq. Ən acınacaqlısı isə odur ki, Emin Hüseynov da bu layihənin bir parçası kimi Azərbaycan əleyhinə hazırlanmış növbəti kampaniyanın əsas fiquru kimi çıxış edir. Bəli, birbaşa ermənilərin, erməni lobbisinin, erməni havadarlarının maraqlarını qorumaq üçün dəridən-qabıqdan çıxan Emin Hüseynov və onun kimilərinin tutduqları bu xəyanətkar yol bütün konturları ilə açıq və ortadadır. Onların məqsədlərinin, məramlarının, arzularının nə olması isə E.Hüseynovun timsalında özünü büruzə verir. Amma onların xəyanət xülyaları elə xülya olaraq da qalır...

*SADİQ*

# Vaşinqtonun yeni Yaxın Şərq strategiyası

## Güc siyasəti, enerji təhlükəsizliyi və dəyişən geosiyasi nizam

**əvvəli ötən sayımızda**

**Ekspertlər problemin həllini necə görürlər?**

**Richard Haass:** diplomatiya gücü əvəz etmir, onu tamamlayır

ABŞ-ın keçmiş diplomatı və uzun illər Council on Foreign Relations-ın rəhbəri olmuş Richard Haass müxtəlif çıxışlarında vurğulayıb ki, xarici siyasətdə hərbi çəkindirmə vacib alətdir, lakin uzunmüddətli sabitlik yalnız diplomatik mexanizmlərlə təmin oluna bilər. Onun yanaşmasına görə, güc və diplomatiya bir-birini istisna edən yox, tamamlayan vasitələrdir. Bu fikir Yaxın Şərq böhranına da aid oluna bilər. ABŞ enerji marşrutlarının təhlükəsizliyini təmin etməyə çalışarkən paralel olaraq etibarlı diplomatik kanalların açıq saxlanması eskalasiyanın idarə olunmasına xidmət edə bilər.

**Graham Allison:** böyük güclərin səhv hesablamaları ən böyük təhlükədir

Harvard Universitetinin professoru Graham Allison beynəlxalq münasibətlər nəzəriyyəsində geniş müzakirə olunan "Fukidid tələsi" (Thucydides Trap) konsepsiyasının müəlliflərindən biridir. Bu anlayış qədim yunan tarixçisi Fukididin əsərlərinə əsaslanır. Fukidid Peloponnes müharibəsini təhlil edərkən yazırdı ki, Afina dövlətinin sürətlə güclənməsi və bunun Spartada yaratdığı qorxu müharibəni qaçılmaz etdi. Graham Allison bu tarixi nümunəni müasir beynəlxalq münasibətlərə tətbiq edərək bildirir ki, yüksəlməkdə olan bir güclə (rising power) mövcud dominant güc (ruling power) arasında rəqabət dərinləşdikcə qarşılıqlı etimadsızlıq, təhlükəsizlik narahatlığı və yanlış hesablamalar silahlı münaqişə riskini artırır. Onun fikrincə, belə vəziyyətlərdə müharibə əvvəlcədən planlaşdırılmış məqsəd deyil, daha çox qarşılıqlı qorxu, səhv qiymətləndirmə və nəzarətdən çıxan eskalasiya nəticəsində baş verə bilər. Allisonun fikrincə, "Fukidid tələsi"nin əsas təhlükəsi ondan ibarətdir ki, tərəflər müharibə istəməsələr belə qarşı tərəfin niyyətini yanlış qiymətləndirmələri və ya təhlükəsizlik məqsədilə atdıqları addımların hücum hazırlığı kimi qəbul edilməsi böhranı idarəolunmaz mərhələyə keçirə bilər. Bu baxımdan ABŞ-İran münasibətlərində də hər iki tərəfin çəkindirmə məqsədilə atdığı hərbi və siyasi addımlar qarşı tərəfdən fərqli şərh oluna, nəticədə isə gərginlik planlaşdırılmamış şəkildə genişmiqyaslı qarşıdurmaya çevrilə bilər. Qeyd etmək vacibdir ki, Graham Allison "Fukidid tələsi"ni qaçılmaz müharibə nəzəriyyəsi kimi təqdim etmir, əksinə, vurğulayır ki, tarixdə belə rəqabətlərin bəziləri müharibə ilə nəticələnsə də, bəzilərində diplomatiya, strateji səbir, qarşılıqlı anlaşma və effektiv böhran idarəetməsi sayəsində münaqişənin qarşısını almaq mümkün olub. Buna görə də bu konsepsiya dövlətlər üçün daha çox xəbərdarlıq modeli kimi qiymətləndirilir. Böyük güclər rəqabət apararkən yanlış hesablamaların və etimad çatışmazlığının yaratdığı riskləri nəzərə almalı, dialoq mexanizmlərini daim açıq saxlamalıdır.

**Joseph Nye:** XXI əsrdə "yumşaq güc" hələ də öz əhəmiyyətini qoruyur

Harvard Universitetinin professoru, beynəlxalq münasibətlər nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri olan Joseph Nye beynəlxalq siyasətdə geniş istifadə olunan "yumşaq güc" (Soft Power) anlayışının müəllifi kimi tanınır. Onun fikrincə, müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu və təsir imkanları artıq yalnız hərbi qüdrət, iqtisadi potensialla müəyyən edilmir. Qloballaşma, informasiya texnologiyalarının inkişafı və dövlətlər arasında qarşılıqlı asılılığın artması nəticəsində beynəlxalq təsirin mahiyyəti dəyişib. XXI əsrdə dövlət yalnız silahlı qüvvələr və iqtisadi təzyiq vasitəsilə deyil, öz ideyaları, dəyərləri, mədəniyyəti və beynəlxalq nüfuzu vasitəsilə də digər dövlətlərin davranışına təsir göstərə bilir.

Joseph Nye "yumşaq güc" anlayışını digər dövlətləri məcbur etmədən, cəzalandırmadan və ya maddi stimullar vasitəsilə satın almadan onlara öz mövqeyini qəbul etdirmək, onları əməkdaşlığa cəlb eləmək bacarığı kimi anladır. Başqa sözlə, əgər "sərt güc" (Hard Power) hərbi qüvvə, iqtisadi sanksiyalar və müxtəlif təzyiq mexanizmləri vasitəsilə siyasi məqsədlərə nail olmağa çalışırsa, "yumşaq güc" dövlətin beynəlxalq nüfuzu, cəlbedici dəyərləri və etibarlılığı sayəsində digər ölkələrin əməkdaşlığa könüllü meyil göstərməsinə əsaslanır. Bu yanaşmaya görə, dövlət yalnız qorxu yaratmaqla yox, etimad qazanmaqla da beynəlxalq təsir imkanlarını genişləndirə bilər.

Nye hesab edir ki, XXI əsrdə dövlətlərin beynəlxalq nüfuzu və təsir imkanları sıx əlaqəli bir sıra amilin vəhdəti nəticəsində formalaşır. Həmin amillər arasında texnoloji üstünlük və innovasiya potensialı, iqtisadi əməkdaşlıq və qarşılıqlı investisiyalar, elm və təhsil sahəsində beynəlxalq əlaqələr, mədəni diplomatiya və milli mədəniyyətin dünyaya tanıdılması, humanitar əməkdaşlıq və inkişaf proqramları, eləcə də demokratik institutların nüfuzu, hüququn aliliyi və səmərəli dövlət idarəçiliyi xüsusi yer tutur. Bu elementlər dövlətin beynəlxalq imicini formalaşdırır və onun digər ölkələr üçün nə dərəcədə cəlbedici tərəfdaş olduğunu müəyyənləşdirir.

Müasir beynəlxalq münasibətlərdə yumşaq güc siyasətinin uğurlu tətbiqinə dair çoxlu nümunə var. Məsələn, ABŞ dünyanın aparıcı universitetləri vasitəsilə hər il minlərlə xarici tələbəni cəlb etməklə yalnız yüksək ixtisaslı kadrlar hazırlamır, eyni zamanda ölkənin elmi, texnoloji və mədəni nüfuzunu gücləndirir. Avropa İttifaqının Erasmus+ proqramı müxtəlif ölkələrdən olan tələbə və müəllimlərin akademik mübadiləsini təşviq etməklə Avropa dəyərlərinin və təhsil sisteminin beynəlxalq cazibəsini artırır. Cənubi Koreya K-pop musiqisi, kino sənayesi və televiziya serialları vasitəsilə qlobal mədəni təsir imkanlarını genişləndirərək öz milli brendini gücləndirir. Yaponiya texnologiya, innovasiya və yüksək keyfiyyət standartları sayəsində beynəlxalq nüfuzunu möhkəmləndirir, Türkiyə isə TİKA, Yunus Əmrə İnstitutu, Maarif Vəqfi və digər humanitar-mədəni institutlar vasitəsilə müxtəlif ölkələrdə təhsil, mədəniyyət və inkişaf layihələri həyata keçirərək öz yumşaq güc potensialını artırır. Bu kimi vasitələr dövlətlərin beynəlxalq imicini gücləndirir, onlara etibarlı tərəfdaş statusu qazandırır və siyasi dialoq üçün daha əlverişli mühit yaradır.

Bununla yanaşı, Joseph Nye vurğulayır ki, müasir beynəlxalq münasibətlərdə yalnız yumşaq gücə arxalanmaq da yetmir. Onun fikrincə, ən uğurlu dövlətlər "ağıllı güc" (Smart Power) strategiyasından istifadə edən dövlətlərdir. Bu konsepsiya sərt və yumşaq güc elementlərinin qarşılıqlı şəkildə tamamlanmasına əsaslanır. Yəni dövlət öz milli təhlükəsizliyini təmin etmək üçün zəruri hərbi və iqtisadi imkanlara malik olmalı, eyni zamanda diplomatiya, elm, təhsil, texnologiya, mədəniyyət və beynəlxalq əməkdaşlıq vasitəsilə öz nüfuzunu artırmalıdır. Başqa sözlə, hərbi güc dövlətin təhlükəsizliyini qorumağa xidmət edirsə, yumşaq güc onun beynəlxalq legitimliyini və tərəfdaşlıq imkanlarını gücləndirir. Nye hesab edir ki, məhz bu iki yanaşmanın balanslaşdırılması dövlətlərin uzunmüddətli strateji uğurunun əsas şərtidir.

Bu yanaşma hazırda Avropada müşahidə olunan təhlükəsizlik transformasiyasını izah etmək baxımından da xüsusi əhəmiyyət daşıyır. Son illərdə Avropa dövlətləri müdafiə xərclərini artırır, silahlı qüvvələrini modernləşdirir və hərbi sənaye potensialını gücləndirirlər. Lakin Joseph Nye-nin nəzəriyyəsinə əsasən, davamlı təhlükəsizlik yalnız silahlanma ilə təmin edilə bilməz. Elmi tədqiqatların inkişafı, yüksək texnologiyalara investisiyalar, universitetlərarası əməkdaşlıq, innovasiya ekosisteminin gücləndirilməsi, iqtisadi inteqrasiya, mədəni əlaqələrin genişləndirilməsi və aktiv diplomatik fəaliyyət də təhlükəsizlik sisteminin ayrılmaz tərkib hissələridir. Joseph Nye-nin qənaətinə görə, yalnız hərbi vasitələrə söykənən strategiya uzunmüddətli perspektivdə sabit nəticə vermir. Dövlətin beynəlxalq nüfuzu, etibarlılığı, tərəfdaşlıq şəbəkəsi və cəlbedici inkişaf modeli onun təhlükəsizlik və qlobal təsir imkanlarının ən mühüm mənbələrindən biri olaraq qalır. Məhz buna görə XXI əsrdə uğurlu dövlətlər sərt güclə yumşaq gücü qarşı-qarşıya qoymur, əksinə, onları vahid strateji yanaşma çərçivəsində uzlaşdıraraq "ağıllı güc" siyasətini həyata keçirir.

**Ian Bremmer: Dünya artıq "G-Zero" mərhələsinə daxil olub**

Amerikalı politoloq, geosiyasi risklər üzrə tanınmış ekspert və Eurasia Group analitik mərkəzinin təsisçisi Ian Bremmer müasir beynəlxalq münasibətləri izah etmək üçün "G-Zero" konsepsiyasını irəli sürüb. Onun fikrincə, XXI əsrdə dünya artıq vahid lider dövlət tərəfindən idarə olunan beynəlxalq sistemdən uzaqlaşıb. Əgər XX əsrin ikinci yarısında beynəlxalq münasibətlər əsasən ABŞ və SSRİ arasında mövcud olan ikiqütblü sistem üzərində qurulurdusa, SSRİ-nin dağılmasından sonra formalaşmış birqütblü dünya modeli də uzunömürlü olmadı. Bremmerin fikrincə, hazırda beynəlxalq sistem elə bir mərhələyə çatıb ki, nə ABŞ, nə Çin, nə Avropa İttifaqı, nə də hər hansı digər böyük güc qlobal problemləri təkbaşına idarə etmək və beynəlxalq gündəliyi tam şəkildə müəyyənləşdirmək imkanına malikdir.

Onun irəli sürdüyü "G-Zero" anlayışı məhz belə bir reallığı ifadə edir. Bu konsepsiyaya görə, beynəlxalq sistemdə qlobal liderlik boşluğu yaranıb. Dünyada iqtisadi, hərbi və siyasi baxımdan güclü dövlətlər mövcud olsa da, onların heç biri həm kifayət qədər gücə, həm də bütün beynəlxalq ictimaiyyət adından qlobal məsuliyyəti üzərinə götürmək iradəsinə malik deyil. Nəticədə beynəlxalq münasibətlər daha parçalanmış, daha rəqabətli və daha mürəkkəb xarakter alır.

Bremmer deyir ki, müasir beynəlxalq sistemdə müxtəlif güc mərkəzlərinin hər biri müəyyən sahədə üstün mövqeyə malikdir. ABŞ hələ də dünyanın ən böyük hərbi gücü, geniş müttəfiqlər şəbəkəsi və yüksək texnoloji potensialı ilə beynəlxalq təhlükəsizlik sisteminin əsas aktorlarından biri olaraq qalır. Çin iqtisadi gücü, istehsal imkanları, qlobal ticarətdəki rolu və "Bir kəmər, bir yol" kimi beynəlxalq layihələri vasitəsilə dünya iqtisadiyyatına ciddi təsir göstərir. Avropa İttifaqı isə hərbi baxımdan deyil, hüququn aliliyi, beynəlxalq standartların müəyyənləşdirilməsi, tənzimləyici mexanizmlər və diplomatik təsir imkanları hesabına "normativ güc" kimi çıxış edir. Hindistan sürətlə artan iqtisadiyyatı, böyük demoqrafik potensialı və beynəlxalq siyasətdə fəallaşan rolu ilə yüksələn qlobal aktor hesab olunur. Körfəz ölkələri, xüsusilə Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Qətər isə enerji ehtiyatları, suveren sərvət fondları və investisiya imkanları sayəsində beynəlxalq iqtisadi və geosiyasi proseslərdə getdikcə daha böyük rol oynayır.




Lakin Bremmerin fikrincə, bu aktorların hər biri müəyyən sahələrdə güclü olsa da, onların heç biri beynəlxalq sistemi təkbaşına idarə edə, qlobal problemlərin həllini təmin edə və bütün dövlətləri ortaq qərarlar ətrafında birləşdirə bilmir. Dövlətlərin maraqları getdikcə daha çox fərqlənir, geosiyasi rəqabət dərinləşir və beynəlxalq təşkilatların konsensus əsasında qərar qəbul etməsi çətinləşir. Bunun nəticəsində qlobal problemlərin həlli daha mürəkkəb və daha ləng prosesə çevrilir.

Bu konsepsiyanın praktik təzahürləri son illərdə baş verən beynəlxalq hadisələrdə aydın müşahidə olunur. Ukrayna müharibəsi, ABŞ-Çin strateji rəqabəti, Yaxın Şərqdə davam edən böhranlar, iqlim dəyişikliyi, pandemiyalar, kibertəhlükəsizlik və beynəlxalq miqrasiya kimi problemlər göstərir ki, bu məsələlərin heç biri ayrı-ayrı dövlətlər tərəfindən həll edilə bilmir. Əksinə, böyük güclər arasında geosiyasi rəqabət bir çox hallarda ortaq qərarların qəbulunu çətinləşdirir və beynəlxalq əməkdaşlığın effektivliyini azaldır.

Ian Bremmer hesab edir ki, "G-Zero" dünyasının ən böyük təhlükəsi böyük dövlətlər arasında rəqabətin mövcudluğu deyil, qlobal liderlik boşluğunun yaranmasıdır. Belə şəraitdə regional münaqişələr daha asanlıqla qlobal böhrana çevrilə, beynəlxalq təşkilatların təsir imkanları zəifləyə və çoxtərəfli diplomatiyanın səmərəliliyi azala bilər. Buna görə də dövlət artıq yalnız hərbi gücə arxalanmaqla öz təhlükəsizliyini təmin edə bilməz.

Bu yanaşma Avropada müşahidə olunan təhlükəsizlik transformasiyasını da izah edir. Avropa dövlətləri anlayır ki, dəyişən beynəlxalq sistemdə təhlükəsizlik məsələlərində yalnız ABŞ-ın liderliyinə güvənmək kifayət etmir. Buna görə də onlar öz müdafiə imkanlarını artırmaqla yanaşı, iqtisadi dayanıqlığı, texnoloji inkişafı və regional əməkdaşlığı da gücləndirməyə çalışırlar. Bremmerin qənaətinə görə, "G-Zero" dünyasında uğur qazanacaq dövlət yalnız güclü ordusu olan yox, həm də çevik diplomatiya yürüdən, iqtisadi cəhətdən dayanıqlı, innovasiya potensialı yüksək və çoxtərəfli əməkdaşlıq qurmaq qabiliyyətinə malik dövlətlər olacaq. Bu baxımdan "G-Zero" konsepsiyası müasir beynəlxalq münasibətlər sistemində baş verən dəyişiklikləri izah edən ən mühüm analitik modellərdən biri kimi qiymətləndirilir.

**Trita Parsi: Hərbi qələbə diplomatik qələbə demək deyil**

İran əsilli amerikalı politoloq, beynəlxalq münasibətlər üzrə tanınmış ekspert və Quincy Institute for Responsible Statecraft analitik mərkəzinin icraçı vitse-prezidenti Trita Parsi Yaxın Şərq təhlükəsizliyi, ABŞ-İran münasibətləri və regional geosiyasət üzrə aparıcı mütəxəssislərdən biri hesab olunur. Onun əsas tezislərindən biri bundan ibarətdir ki, hərbi üstünlük əldə etmək və ya döyüş meydanında qələbə qazanmaq avtomatik olaraq siyasi və diplomatik məqsədlərin reallaşması demək deyil. Əksinə, bir çox hallarda hərbi uğurlar davamlı siyasi həll yolu ilə müşayiət olunmadıqda münaqişənin yeni mərhələyə keçməsinə və uzunmüddətli qeyri-sabitliyə səbəb olur.

Trita Parsi hesab edir ki, beynəlxalq münaqişələrin mahiyyəti təkcə hərbi qüvvələr arasındakı qarşıdurma ilə məhdudlaşmır. Münaqişələrin əsas səbəbləri siyasi maraqlar, təhlükəsizlik narahatlıqları, ideoloji ziddiyyətlər, regional nüfuz uğrunda rəqabət və qarşılıqlı etimadsızlıqdır. Bu problemlər aradan qaldırılmadıqca, hərbi əməliyyatlar müvəqqəti üstünlük yaratsa belə, davamlı sülh təmin edilə bilməz. Onun fikrincə, silahlı qarşıdurma böhranın simptomlarını zəiflədə bilər, lakin onun siyasi səbəblərini aradan qaldırmır.

Parsi son çıxışlarında ABŞ və İran arasında gərginliyin yenidən artmasını qiymətləndirərkən bildirib ki, atəşkəs rejiminin pozulması və hərbi əməliyyatların bərpası tərəflərin mövqelərini daha da sərtləşdirir, qarşılıqlı etimadı azaldır və diplomatik danışıqlara qayıtmağı xeyli çətinləşdirir. Onun fikrincə, hərbi eskalasiya davam etdikcə kompromis imkanları daralır, ictimai rəy daha radikal mövqe tutur və siyasi rəhbərlərin güzəştə getməsi daxili siyasi baxımdan daha mürəkkəb hala gəlir. Bu isə münaqişənin uzanmasına, yeni qarşıdurmalar üçün zəmin yaranmasına səbəb olur.

Trita Parsi xüsusilə vurğulayır ki, diplomatiya yalnız sülh dövrünün yox, böhran dövrünün də əsas alətlərindən biri olmalıdır. Onun yanaşmasına görə, tərəflər arasında hərbi qarşıdurma davam etsə belə, siyasi dialoq, vasitəçilik təşəbbüsləri və kommunikasiya kanalları tam bağlanmamalıdır. Əks halda tərəflər bir-birinin niyyətini yalnız hərbi addımlar vasitəsilə qiymətləndirməyə başlayır ki, bu da yanlış hesablamalar və nəzarətdən çıxan eskalasiya riskini artırır.

Parsi öz mövqeyini əsaslandırarkən son onilliklərdə İraq, Əfqanıstan, Suriya və Yəməndə baş vermiş hadisələri nümunə gətirir. Onun fikrincə, bu münaqişələr göstərdi ki, hərbi əməliyyatlar müəyyən taktiki nəticələr versə də, siyasi razılaşma və inklüziv diplomatik proses olmadan uzunmüddətli sabitlik əldə etmək mümkün deyil. Dövlət institutlarının bərpası, iqtisadi inkişaf, humanitar problemlərin həlli və qarşılıqlı etimadın formalaşdırılması yalnız siyasi dialoq vasitəsilə mümkündür.

Bu yanaşma beynəlxalq münasibətlər nəzəriyyəsində "sərt güc" və "yumşaq güc" arasında tarazlıq prinsipinə də uyğundur. Parsi hesab edir ki, dövlət müəyyən hallarda öz təhlükəsizliyini təmin etmək üçün hərbi vasitələrdən istifadə edə bilər. Lakin həmin hərbi fəaliyyət mütləq şəkildə diplomatik strategiya ilə müşayiət olunmalıdır, yoxsa qazanılan hərbi üstünlük qısa müddət ərzində yeni böhranla əvəz oluna bilər.

Bu baxımdan ABŞ-İran münasibətləri də istisna deyil. Trita Parsinin fikrincə, hətta hərbi çəkindirmə müəyyən nəticələr versə belə, tərəflər arasında danışıqlar üçün "diplomatik çıxış yolu" açıq saxlanmalıdır. Əgər bu imkan aradan qalxarsa, hər bir yeni hərbi əməliyyat növbəti eskalasiyanı doğuracaq və münaqişənin təkrarlanma ehtimalını artıracaq. Buna görə də o, davamlı təhlükəsizliyin əsas şərti kimi yalnız hərbi balansın deyil, eyni zamanda qarşılıqlı etimadın bərpasını, beynəlxalq vasitəçiliyin gücləndirilməsini və çoxtərəfli diplomatiyanın inkişafını görür.

Beləliklə, Trita Parsinin yanaşmasının əsas mahiyyəti ondan ibarətdir ki, müharibədə qazanılan hərbi uğur siyasi-diplomatik vasitələrlə möhkəmləndirilmədiyi təqdirdə davamlı sülh yaratmır. Mütləq qələbə danışıqlar masasında əldə olunan və bütün tərəflər üçün qəbul edilə bilən siyasi razılaşma ilə mümkün olur.

Bizim fikrimizə gəlincə, XXI əsrdə Yaxın Şərqdə sabitlik yaratmaq üçün yeni yanaşma tələb olunur. Mövcud geosiyasi reallıq göstərir ki, heç bir dövlət təkbaşına regionda uzunmüddətli təhlükəsizlik modeli qura bilməz. ABŞ-ın enerji marşrutlarının təhlükəsizliyini qorumaq istiqamətində atdığı addımlar beynəlxalq ticarət baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, davamlı sabitlik üçün hərbi çəkindirmə diplomatik və iqtisadi mexanizmlərlə tamamlanmalıdır. Bu baxımdan aşağıdakı təşəbbüslərin müzakirəyə çıxarılması məqsədəuyğun görünür: BMT himayəsi altında Hörmüz Dəniz Təhlükəsizliyi Forumu yaradılmalıdır. Burada ABŞ, İran, Körfəz ölkələri, Avropa İttifaqı, Çin və Hindistan təmsil olunmalıdır. Enerji marşrutlarının təhlükəsizliyi siyasi mübahisələrdən ayrılmalıdır. Ticarət gəmilərinin təhlükəsiz keçidi bütün tərəflərin ortaq marağı kimi tanınmalıdır. Böhran zamanı hərbi rabitə kanalları daim açıq saxlanmalıdır. Yanlış hesablamaların qarşısını almaq üçün tərəflər arasında operativ əlaqə mexanizmləri gücləndirilməlidir. Nüvə proqramı üzrə mərhələli və qarşılıqlı yoxlanıla bilən razılaşmalar hazırlanmalıdır - bu etimadın bərpasına xidmət edə bilər. Humanitar və elmi əməkdaşlıq siyasətdən ayrılmalıdır. Universitetlər, səhiyyə və elmi layihələr geosiyasi qarşıdurmanın girovuna çevrilməməlidir. Regional iqtisadi inteqrasiya təşviq edilməlidir - birgə logistika və infrastruktur layihələri münaqişə riskini azalda bilər. Dezinformasiya ilə mübarizə üzrə beynəlxalq mexanizmlər gücləndirilməlidir - böhran dövrlərində yanlış informasiya eskalasiyanı sürətləndirə bilər. Qlobal enerji bazarlarında fövqəladə koordinasiya mexanizmləri yaradılmalıdır ki, hərbi gərginlik dünya iqtisadiyyatında kəskin şoklara səbəb olmasın. Orta güclü dövlətlərin vasitəçilik potensialından daha fəal istifadə olunmalıdır - tərəflərin etimad göstərdiyi neytral platformalar danışıqlar üçün əlavə imkan yarada bilər. Uzunmüddətli məqsəd regionun təhlükəsizlik arxitekturasını inklüziv etmək olmalıdır - heç bir ölkənin təhlükəsizliyi digərinin qeyri-sabitliyi hesabına qurulmamalıdır.

Yaxın Şərqdə baş verənlər bir daha göstərir ki, qlobal siyasət artıq yalnız hərbi qüvvələrin qarşıdurması ilə izah edilə bilməz. Enerji təhlükəsizliyi, beynəlxalq ticarət, texnologiya, diplomatiya və informasiya mühiti vahid təhlükəsizlik sisteminin elementlərinə çevrilib. ABŞ-ın bölgədə oynadığı rol bu kontekstdə həm müttəfiqləri, həm də rəqibləri tərəfindən diqqətlə izlənir. Qarşıdakı dövrdə əsas məsələ kimin daha çox gücə malik olacağı deyil, bu gücün beynəlxalq sabitliyin qorunması üçün necə istifadə ediləcəyidir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Qaraciyərin səssiz düşməni...

## Hepatiti erkən tanımaq niyə vacibdir?

Qaraciyər insan orqanizmində maddələr mübadiləsinin tənzimlənməsi, toksik maddələrin zərərsizləşdirilməsi, vitamin və mineralların ehtiyat şəklində saxlanılması kimi vacib funksiyaları yerinə yetirir. Bu orqanın iltihabi xəstəliyi olan hepatit insan sağlamlığı üçün ciddi təhlükə yaradır. Vaxtında diaqnoz qoyulmadıqda qaraciyər serrozu, qaraciyər çatışmazlığı, hətta qaraciyər xərçəngi kimi ağır fəsadların inkişafına səbəb ola bilir. Xəstəliyin müxtəlif növləri mövcud olsa da, xüsusilə B və C virus hepatitləri uzun müddət gizli inkişaf etdiyinə görə insanlar çox zaman özlərində infeksiyanın olduğunu bilmədən yaşayır. Nəticədə xəstəlik irəliləyərək qaraciyər serrozu, qaraciyər çatışmazlığı, hətta qaraciyər xərçəngi kimi ağır fəsadlara səbəb olur. Bütün bunlar erkən müayinələrin və müntəzəm tibbi nəzarətin nə qədər vacib olduğunu bir daha xatırladır.

İyulun 28-i bütün dünyada Ümumdünya Hepatitlə Mübarizə Günü kimi qeyd olunur. Bu gün təkcə təqvimdə yer alan əlamətdar tarixlərdən biri deyil, uzun illər heç bir əlamət vermədən orqanizmdə inkişaf edən virus hepatitlərinə qarşı cəmiyyətin diqqətini artırmaq, erkən diaqnostikanın və vaxtında müalicənin əhəmiyyətini vurğulamaq məqsədi daşıyan qlobal həmrəylik günüdür.

**Gigiyena qaydalarına əməl edilmədikdə...**

Hepatit müxtəlif səbəblərdən yarana bilir. Uzun müddət və nəzarətsiz şəkildə qəbul edilən bəzi dərman preparatları, həddindən artıq alkoqol qəbulu, zəhərli kimyəvi maddələrin təsiri və maddələr mübadiləsinin bəzi pozğunluqları da qaraciyərin iltihabına səbəb ola bilər. Bu da xəstəliyin yalnız virus mənşəli olmadığını göstərir.

Hepatit A və E əsasən gigiyena qaydalarına əməl edilmədikdə, çirkli su və ya virusla çirklənmiş qida məhsullarının qəbulu nəticəsində yayılır. Hepatit B, C və D isə yoluxmuş qan ilə təmas zamanı, steril olmayan tibbi alətlərdən istifadə edildikdə, təhlükəsiz olmayan inyeksiyalar zamanı yayıla bilir. Hepatit B infeksiyası doğuş zamanı anadan körpəyə ötürülə bilər. Bu səbəbdən fərdi gigiyena qaydalarına riayət olunması, yalnız steril tibbi alətlərdən istifadə edilməsi və təhlükəsiz davranış vərdişlərinin formalaşdırılması böyük əhəmiyyət daşıyır.

**Xəstəliyin əlamətləri nədir?**

Xəstəliyin ilkin mərhələsində bir çox insan heç bir narahatlıq hiss etmədiyi üçün hepatit uzun müddət gizli şəkildə inkişaf edə bilər. Bəzi hallarda halsızlıq, iştahasızlıq, ürəkbulanma, qarının sağ yuxarı nahiyəsində ağırlıq hissi, qızdırma, dərinin və göz ağlarının saralması kimi əlamətlər meydana çıxa bilər. Belə hallar müşahidə olunduqda mütləq həkimə müraciət edilməli, laborator analizlər və digər müayinələr vasitəsilə dəqiq diaqnoz qoyulmalıdır.

**Hepatitlə mübarizədə ən təsirli vasitələrdən biri...**

Müasir tibb hepatitlərin diaqnostikası və müalicəsi sahəsində mühüm nailiyyətlər əldə edib. Xüsusilə, hepatit C infeksiyasının müasir antiviral preparatlarla əksər hallarda tam sağaldılması mümkündür, hepatit B infeksiyası isə bir çox hallarda tam aradan qaldırılmasa da, müasir dərman vasitələri ilə virusun fəaliyyəti uzun müddət nəzarətdə saxlanıla, qaraciyərin zədələnməsinin qarşısı alına və xəstələrin həyat keyfiyyəti əhəmiyyətli dərəcədə yaxşılaşdırıla bilər.

Hepatit A və E infeksiyalarında isə müalicənin əsas məqsədi orqanizmin bərpasına kömək etmək, kifayət qədər maye qəbulu, düzgün qidalanma və həkim nəzarəti altında simptomatik müalicə aparmaqdan ibarətdir. Çünki bu infeksiyalar əksər hallarda öz-özünə sağalma ilə nəticələnir, lakin ağırlaşma riski olan xəstələr daim tibbi nəzarətdə saxlanılmalıdır.

Mütəxəssislər bildirirlər ki, hepatitlə mübarizədə ən təsirli vasitələrdən biri profilaktikadır. Xüsusilə, hepatit A və B əleyhinə peyvəndlərin tətbiqi xəstəliyin qarşısının alınmasında yüksək effektivlik nümayiş etdirir. Eyni zamanda qan donorlarının müayinədən keçirilməsi, tibbi müəssisələrdə sterilizasiya qaydalarına ciddi əməl olunması, şəxsi gigiyena vərdişlərinin formalaşdırılması və risk qrupuna daxil olan insanların mütəmadi müayinələrdən keçməsi yoluxma hallarının azalmasına mühüm töhfə verir.

Unutmaq olmaz ki, hepatitə qarşı mübarizə yalnız həkimlərin və səhiyyə qurumlarının deyil, bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir. Məlumatlı olmaq, vaxtında müayinədən keçmək, peyvənd olunmaq və profilaktik qaydalara riayət etmək hər bir insanın həm öz sağlamlığını, həm də yaxınlarının gələcəyini qorumasına xidmət edir. Məhz bu səbəbdən 28 iyul hər birimiz üçün sağlamlığın dəyərini yenidən xatırladan, biganəliyin deyil, məsuliyyətin seçilməli olduğu mühüm bir çağırış kimi yadda qalmalıdır.

*Yeganə BAYRAMOVA*

# Xoş qoxunun arxasındakı təhlükə!

## Günəş altında qalan ətirlər...

Şəhərin sıx küçələrində, metro çıxışlarının qarşısında və insanların çox olduğu yerlərdə rəngbərəng flakonlarda satılan ucuz ətirlər uzun illərdir ki, alıcıların marağındadır. Qiymətin münasib olması, müxtəlif məşhur brend adlarını xatırladan qoxuların təklif edilməsi xüsusilə büdcəsinə qənaət etmək istəyənlərin diqqətini cəlb edir. Lakin həmin ətirlərin saxlanma şəraiti, tərkibi və insan sağlamlığına təsirləri ilə bağlı ciddi suallar qalmaqdadır.

Yay aylarında vəziyyət daha da mürəkkəbləşir. Belə ki, bir çox satıcı gün ərzində ətir flakonlarını birbaşa günəş şüalarının altında, yüksək temperaturun təsirinə məruz qalan açıq məkanlarda saxlayır. Saatlarla davam edən istilik təsiri yalnız məhsulun qoxusunun dəyişməsinə deyil, eyni zamanda onun kimyəvi tərkibində müəyyən dəyişikliklərin yaranmasına səbəb ola bilər. Məlumdur ki, ətir istehsalında istifadə olunan aromatik maddələr, efir yağları, həllediciler və digər komponentlər temperatur dəyişikliklərinə qarşı həssasdır. Bu baxımdan düzgün saxlanmayan məhsullarda keyfiyyət itkisi, oksidləşmə prosesləri və dəridə arzuolunmaz reaksiyalara səbəb ola biləcək birləşmələrin yaranma ehtimalı artır.

Mütəxəssislərin fikrincə, insan dərisi çox həssas və mürəkkəb bir orqandır. Bu baxımdan dəriyə vurulan istənilən kosmetik məhsul yalnız xoş qoxu yaratmaq məqsədi daşımır, eyni zamanda dəri ilə birbaşa təmasda olduğu üçün təhlükəsizlik standartlarına cavab verməlidir. Mənşəyi bilinməyən, istehsalçısı, tərkibi və istifadə müddəti haqqında dəqiq məlumat olmayan ətirlər isə xüsusilə riskli hesab olunur. Belə məhsullarda allergik reaksiyalara səbəb ola biləcək maddələrin olub-olmadığını əvvəlcədən müəyyən etmək çətinləşir.

**Küçədə satılan məhsullar nə qədər təhlükəsizdir?**

## Sertifikatsız məhsulların yaratdığı risklər

Dermatoloq Tamilla Məmmədova “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, keyfiyyətsiz və düzgün saxlanmayan ətirlər bəzi insanlarda dəridə qızartı, qaşınma, yanma hissi, səpkilər, quruluq və kontakt dermatit adlanan allergik dəri xəstəliyinin yaranmasına səbəb ola bilər: “Xüsusilə, həssas dəriyə sahib olan şəxslərdə və allergiyaya meyilli insanlarda bu risk daha yüksəkdir. Ətir məhsulları dəriyə tətbiq olunan kosmetik vasitələr arasında xüsusi diqqət tələb edən qrupdur, çünki onların tərkibində çoxsaylı kimyəvi komponentlər ola bilər. Məhsul uzun müddət yüksək temperaturda və günəş şüalarının altında saxlanıldıqda bəzi maddələrin sabitliyi pozula bilər. Bundan əlavə, tərkibi məlum olmayan və sertifikasiyası olmayan ətirlərdə hansı maddələrin istifadə edildiyini bilmək mümkün deyil. Belə məhsullar bəzi insanlarda allergik dermatit, qıcıqlanma və dərinin qoruyucu baryerinin zəifləməsi kimi problemlərə səbəb ola bilər.”



## Ucuz ətirlərin baha nəticəsi...

Dermatoloqun sözlərinə görə, günəş altında qalan ətirlərlə bağlı başqa bir məqam da fotosensitivlik, yəni bəzi maddələrin günəş işığı ilə qarşılıqlı təsir nəticəsində dəridə mənfi reaksiya yaratması ehtimalıdır: “Ətir vurulduqdan sonra həmin nahiyənin uzun müddət günəşə məruz qalması bəzi hallarda ləkələnmə, qızartı və qıcıqlanma ilə nəticələnə bilər. İnsanların diqqət etməli olduğu əsas məsələlərdən biri isə məhsulun yalnız qiyməti deyil, onun harada və necə saxlanılmasıdır. Kosmetik məhsul alarkən istehsalçı məlumatı, tərkib siyahısı, istifadə müddəti və qablaşdırmanın bütövlüyü mütləq yoxlanılmalıdır. Çox ucuz qiymətə satılan, mənşəyi bilinməyən və açıq havada günlərlə saxlanılan məhsullar ilk baxışda cibə qənaət kimi görünsə də, sonradan dəri problemləri ilə bağlı əlavə xərclərə və sağlamlıq narahatlıqlarına səbəb ola bilər.

Metro çıxışlarında satılan ətirlər şəhərin gündəlik mənzərəsinin adi bir hissəsinə çevrilsə də, onların arxasında görünməyən bir sual dayanır - İnsan bədəninə vurulan məhsul yalnız xoş qoxusuna görə seçilməlidir, yoxsa onun təhlükəsizliyi və keyfiyyəti də eyni dərəcədə önəm daşımalıdır? Cavab aydındır: dəri ilə təmasda olan hər bir məhsul, xüsusilə də yay istisində günəş altında qalan kosmetik vasitələr diqqətlə seçilməli və sağlamlıq riskləri nəzərə alınmalıdır”.

## Ətirin üzərindəki məlumatlar niyə vacibdir?

Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, bütün ətriyyat brendlərinin saxta variantları mövcuddur: “Təəssüflər olsun ki, Nazirlər Kabinetinin 114 saylı qərarına görə ətirlər dəyişdirilməyən, geri qaytarılmayan mallar siyahısındadır. Ona görə də saxta ətriyyat məhsulunu sonradan geri qaytarmaq və dəyişdirmək mümkün deyil. Əslində bütün ətirlərin üzərində istehsalçı haqqında, tərkibi barədə, istehsal və son istifadə tarixi barədə məlumat olmalıdır. Amma küçələrdə satılan ətirlərin üzərində heç bir zəruri məlumat yoxdur. Bəzi ətir və kosmetika istehsalçıları bu tələbi kobud şəkildə pozurlar. Belə ki, son istifadə tarixini açıq yazmırlar, kodlarla bunu göstərirlər.
Çox az istehlakçı da internet üzərindən o kodlar vasitəsi ilə öyrənə bilir ki, bu məhsulun vaxtı keçib, ya yox”.

## Belə ətirləri istehlak etmək olmaz...

E.Hüseynov bu cür ətirlərin zərərlərindən də söz açıb: “Son zamanlarda küçələrdə açıq ətir satışı da geniş yayılıb. Bu ətirlər barədə heç bir rəsmi məlumat almaq mümkün deyil. Satıcılar küçənin ortasında müxtəlif mayeni qarışdıraraq onu müştəriyə ətir kimi təqdim edir. Belə ətirləri istehlak etmək olmaz. Bu ilk növbədə insanlarda dəri xəstəliklərinə yol açır. Küçədə satılan ətirləri heç bir rəsmi qurum tədqiq etmir. Bundan da sui-istifadə edən işbazlar ətriyyat bazarında istədikləri cür davranırlar.

Gərək vətəndaşlar küçə və keçidlərdə mənşəyi məlum olmayan ətriyyatlardan uzaq dursunlar. Eyni zamanda üzərində istehsal və son istifadə tarixi olmayan ətirləri də istehlak etmək olmaz. Bu mallar ilk növbədə sağlamlığımıza bir təhdiddir”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4513
Sifariş: 957
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova